
YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

19 noyabr
2026-cı il,
cümə axşamı
№ 211 (7278)
Qiyməti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!

A.S. (Ante Skriptum)

"İlham Əliyevin fikirlərinə əlavə etmək mümkün deyil, sadəcə onun dediklərini təkrarlamaq lazımdır"

Azərbaycan - Almaniya: strateji dialoq davam edir...







Bax səh. 2

Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə yeni mərhələ formalaşdırır

Bax səh. 4

Fərqli coğrafiyalarda vahid prinsip üzrə...



Bax səh. 3

Milli Məclisin iclasında...

2027-ci ilin büdcə zərfinə daxil olan qanun layihələrinin birinci oxunuşda müzakirəsi başa çatıb

Bax səh. 4

Mərkəzi Bankın nəzarət funksiyaları artırılır



Bax səh. 6

"Müasir gənclik və dövlətçilik məfkurəsi: rəqəmsal məkanda milli maraqlar"

Bax səh. 5

Azərbaycan - Aİ tərəfdaşlığı güclənir

Azərbaycan Avropa İttifaqı (Aİ) ilə münasibətlərində daim beynəlxalq hüququn norma və prinsiplərinə, qarşılıqlı hörmət və bərabərhüquqluluq əsasında qurulan əməkdaşlığa üstünlük verir. Bu mövqe imzalanan sənədlərdə, diplomatik danışıqlarda və parlamentlərarası münasibətlərdə ardıcıl şəkildə əksini tapıb. Ölkəmiz öz milli maraqları çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlığa böyük önəm verir. Bu gün Azərbaycanla qarşılıqlı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin davam və inkişaf etdirilməsi Aİ üçün xüsusi əhəmiyyət daşıyır. Çünki Cənubi Qafqaz regionunun güc mərkəzi kimi çıxış edən, mühüm geostrateji üstünlüklərə malik olan...

Bax səh. 5

Orta Dəhliz və Lapis Lazuli marşrutu beyin mərkəzlərinin diqqətində...

Beynəlxalq müstəvidə beyin mərkəzlərinin rolu informasiya təhlükəsizliyi və texnoloji inqilab, həmçinin siyasət problemlərinin artan mürəkkəbliyi fonunda getdikcə güclənir. Beyin mərkəzlərinin yeni bilik yaratmaq, sosial problemləri təhlil etmək, cəmiyyətə innovativ ideyalar təqdim etmək kimi funksiyaları var. Onların əsas məqsədi ictimai əhəmiyyət kəsb edən məsələlərdə qərarvericilərə tövsiyələr hazırlamaq və geniş sosial müzakirə mövzuları yaratmaqdır.

Son illər regionumuzda...

Bax səh. 5

Azərbaycanlı alimlərdən çağırış...

Gəlin dünyanı xilas edək

Bu gün təqribən 8,3 milyard insan yaşayan Yer kürəsi Günəş sisteminin üçüncü planetidir. O, bu sistemdə mövcud olan 8 planetdən yeganəsidir ki, orada canlı həyat mövcuddur.

Yer kürəsinin radiusu 6371 km, ekvatorunun uzunluğu isə 40 075 km -dir. Ay Yer kürəsinin yeganə təbii peykidir. Yəni Yer kürəsinin ətrafında təbii olaraq dövr edən yeganə göy cismidir. Ay Yerin ətrafında təqribən 27,3 günə bir tam dövr edir. Günəş isə planetlər ətrafında deyil, planetlər Günəş ətrafında...

Bax səh. 6

Çin görüşləri...


Dünən ikitərəfli, bu gün üçtərəfli...

Çinin Şencen şəhərində Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının (APEC) 33-cü zirvə toplantısı işə başlayıb. Çin tərəfi açıqlıq, innovasiya və əməkdaşlığı "APEC Çin ili"nin prioritetləri elan edib. Tədbir "Birlikdə tərəqqi üçün Asiya-Sakit okean cəmiyyəti quraq" devizi ilə keçirilir. Şencen zirvə toplantısı çərçivəsində noyabrın 18-də açılış mərasimi, rəsmi tədbirlər və ziyafət baş tutub. Eyni zamanda dünən bir sıra ikitərəfli görüşlər də baş tutub. Noyabrın 19-da isə plenar iclas olacaq. Sammitin sonunda liderlərin yekun bəyanatının qəbul edilməsi gözlənilir.

Budəfəki zirvə toplantısının önəmli məqamlarından biri isə heç şübhəsiz...

Bax səh. 7

İran nüvə müqaviləsindən çıxarsa...



Bax səh. 7

APEC-in 33-cü zirvə toplantısı işə başlayıb



Bax səh. 7



Azərbaycan - Almaniya: strateji dialoq davam edir...

Azərbaycanın milli maraqlar üzərində qurulan və suverenlik prinsipinə əsaslanan çoxvektorlu xarici siyasət kursunda əsas istiqamətlərdən biri də Avropa İttifaqı (Aİ) məkanında yerləşən ölkələrlə ikitərəfli platformalarda əlaqələri genişləndirməkdir. Davamlı səciyyə daşıyan bu siyasət özünün gözəl bəhrələrini verməkdədir. Belə ki, respublikamız Aİ-nin üzvü olmasa da, qurumda yer alan 10 ölkə ilə strateji tərəfdaşlıq münasibətləri qurmağa nail olub ki, bu da bütövlükdə qoca qitədə Azərbaycana olan böyük etimadın göstəricisidir.

Bu kontekstdə Azərbaycanın siyasi nüfuzuna və iqtisadi çəkisinə görə Aİ-nin drayver ölkələrindən sayılan Almaniya ilə əlaqələrinin ikitərəfli müstəvidə yeni mərhələyə yüksəlməsi də diqqət çəkir. Getdikcə dərinləşən bu əlaqələr qarşılıqlı maraqlara əsaslanır və hər iki tərəf münasibətlərin genişlənməsindən faydalanır. Bu günlərdə Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə Almaniya Federativ Respublikasının xarici işlər naziri Yohan David Vadefulun başçılıq etdiyi nümayəndə heyəti arasında baş tutan görüşdə də ikitərəfli əlaqələrin inkişafından böyük məmnunluq ifadə olunub.

Kifayət qədər geniş olan ikitərəfli gündəlik

Azərbaycanla Almaniya arasında əlaqələrin bugünkü yüksək dinamikasından bəhs edərkən tarixə nəzər salmaq da yerinə düşər. Bəli, hazırda hər iki tərəfin məmnunluq ifadə etdiyi ikitərəfli əlaqələr təkcə iqtisadi və siyasi maraqlara əsaslanmır. Bu əlaqələrin arxasında dərin humanitar və mədəni bağlar dayanır. Əsrlər boyu müxtəlif mədəniyyətlərin və dinlərin dinc yanaşı yaşadığı tolerantlıq və multikulturalizm məkanı olan Azərbaycanda zəngin alman irsi xüsusi yer tutur. XIX əsrin əvvəllərində alman ailələrinin Azərbaycana köçməsi ilə Göygöl (Yelenendorf) və Şəmkir (Annenfeld) başda olmaqla Gəncə, Qazax, Tovuz və Ağstafa bölgələrində alman koloniyaları yaranıb. Almanlar Azərbaycanda üzümçülük və şərabçılığın təməlini qoyub, memarlıq və sənaye mədəniyyətinə böyük töhfələr veriblər. Bu inteqrasiya o qədər dərin olub ki, 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində milli azlıqları təmsil edən fraksiyanın üzvlərindən biri məhz almanəsilli Lorentz Kuntz idi.

Bu kimi faktlar onu təsdiqləyir ki, bu gün yüksək səviyyədə olan Azərbaycan-Almaniya münasibətlərinin inkişafı üçün möhkəm özül var.

1992-ci il yanvarın 12-də Azərbaycanın müstəqilliyini tanıyan Berlinlə Bakı arasında həmin il fevralın 20-də diplomatik münasibətlər qurulub. Altı ay sonra - sentyabrın 2-də Azərbaycanın Almaniyada səfirliyi, sentyabrın 22-də isə bu ölkənin Bakıda diplomatik nümayəndəliyi açılıb. Diplomatik münasibətlərin yaranmasından sonra Azərbaycan və Almaniya arasında əlaqələr mütəmadi olaraq inkişaf edib.

İki ölkə arasında siyasi dialoqun genişlənməsində qarşılıqlı səfərlərin və müxtəlif platformalarda aparılan müzakirələrin mühüm rolu var. Yeri gəlmişkən, bu günlərdə Bakıda Prezident İlham Əliyevlə Almaniya Federativ Respublikasının xarici işlər naziri Yohan David Vadefulun başçılıq etdiyi nümayəndə heyəti arasında baş tutan görüşdə söhbət zamanı cari ilin iyulunda dövlətimizin başçısının Almaniyaya rəsmi səfəri, səfər çərçivəsində keçirilən görüşlər və aparılan səmərəli müzakirələr məmnunluqla xatırlanıb. Həmin səfər zamanı imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə", həmçinin Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və fəaliyyətinə dair Birgə Bəyannamənin ikitərəfli əməkdaşlığın möhkəmlənməsində roluna toxunulub.

Burada yenə də tarixə ekskurs etmək lazım gəlir. İki ölkə arasında diplomatik münasibətlərin qurulmasından sonra əlaqələrin inkişafında ən mühüm dönüş nöqtəsi Ulu Öndər Heydər Əliyevin 1996-cı il iyulun 1-4-də Almaniyaya etdiyi tarixi səfər olub. Həmin səfər müstəqilliyini yenicə bərpa etmiş gənc Azərbaycan dövlətinin Avropanın ən böyük güclərindən biri ilə uzunmüddətli tərəfdaşlıq strategiyasının təməlini qoyub.

Dörd günlük intensiv proqramı əhatə edən həmin tarixi səfər çərçivəsində rəsmi Berlinin siyasi elitası - Prezident Roman Hersoq, Kansler Helmut Kol və Bundestaqın rəhbərliyi ilə keçirilən ali səviyyəli görüşlər gənc respublikanın müstəqil xarici siyasət kursunun Avropada qəbul olunmasını təmin etdi. Ulu Öndərin Almaniyanın aparıcı siyasi partiyalarının və Şimali Atlantika Assambleyasının təmsilçiləri ilə dialoqu, habelə diaspor fəalları ilə strateji təmasları münasibətlərin çoxtərəfli ictimai-siyasi zəminini formalaşdırdı. İqtisadi müstəvidə isə "Deutsche Bank", "Siemens", "Thyssen" və "Mercedes-Benz" kimi sənaye və maliyyə nəhəngləri ilə əldə olunan fundamental razılaşmalar Azərbaycanın qlobal iqtisadi sistemə inteqrasiyasının və irimiqyaslı investisiya cəlbinin hüquqi-praktiki təməlini qoydu. Eyni zamanda, Səttar Bəhlulzadənin əsərlərinin təqdimatı fonunda keçirilən humanitar tədbirlər iki xalq arasında mədəni yaxınlaşmanın əsas hərəkətverici qüvvəsinə çevrildi.

Ulu Öndərin əsasını qoyduğu siyasi xətti sonrakı mərhələdə Prezident İlham Əliyev eyni ardıcıllıqla davam etdirib. Prezident İlham Əliyevin 2024-cü ilin aprelində Almaniyaya uğurlu səfəri, həmçinin dövlətimizin başçısının ənənəvi olaraq Münxen Təhlükəsizlik Konfransında fəal iştirakı siyasi dialoqun daimi xarakter daşıdığını göstərir. İkitərəfli münasibətlərdə dərin qarşılıqlı etimadın ən bariz nümunələrindən biri kimi, Almaniyanın Federal Prezidenti Frank-ValterŞtaynmayerin 2025-ci ilin aprelində Bakıya reallaşan səfəri xüsusi əhəmiyyət daşıyır. Bu ardıcıllıq göstərir ki, Berlin regional sabitlik və qlobal layihələrdə Bakını əvəzedilməz tərəfdaş kimi görür.

Azərbaycanın dövlət başçısının 2026-cı ilin iyul ayında Almaniyaya baş tutan uğurlu rəsmi səfəri ilə ikitərəfli strateji dialoqun əsası qoyulub. Xatırladaq ki, Azərbaycan Prezidentinin Berlinə bu səfəri Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Mertsin dəvəti əsasında baş tutub ki, bunun özü də ölkəmizə və onun Liderinə qarşı tərəfin böyük ehtiramının ifadəsidir. Almaniya paytaxtında mətbuata verdiyi bəyanatında imzalanmış sənədlərin ikitərəfli əlaqələri yeni səviyyəyə qaldıracağına əminliyini bildirən dövlətimizin başçısı "Biz artıq strateji dialoqun başlanmasını arzulayırdıq və buna nail olmuşuq. Eyni zamanda, iqtisadi əlaqələrin genişləndirilməsi üçün bu gün imzalanmış Birgə Bəyannamə əminəm ki, çox fəal işləyib yaxşı nəticələr hasil edəcəkdir", - deyə vurğulayıb.



Diplomatlar səviyyəsində davamlı hal alan siyasi məsləhətləşmələr

Eyni zamanda, Azərbaycan və Almaniya xarici işlər nazirlikləri arasında daimi təmaslar siyasi dialoqun möhkəmlənməsinə öz müsbət təsirini göstərir. Bəhs olunan səfər çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Almaniyanın xarici işlər naziri Yohan Vadeful arasında təkbətək və geniştərkibli görüşlər keçirilib.

Görüşlər zamanı nazirlər Azərbaycan-Almaniya münasibətlərinin mövcud vəziyyəti, ikitərəfli əməkdaşlığın genişləndirilməsi perspektivləri, həmçinin əsas regional və beynəlxalq hadisələr barədə hərtərəfli müzakirələr aparıblar.

Azərbaycan və Almaniya 2027-ci ildə diplomatik münasibətlərin qurulmasının 35-ci ildönümünə yaxınlaşdığı bir vaxtda nazirlər qarşılıqlı hörmət, konstruktiv dialoq və ortaq maraqlara əsaslanan tərəfdaşlığın inkişaf etdirilməsinin vacibliyini bir daha təsdiq ediblər. Bildirilib ki, Azərbaycan Prezidentinin 2026-cı ilin iyulunda Almaniyaya rəsmi səfəri zamanı qəbul edilmiş İkitərəfli Tərəfdaşlıq üzrə Strateji Gündəlik münasibətlərimizin irəliyə aparılması üçün mühüm çərçivə təmin edir. "Biz Azərbaycan-Almaniya ikitərəfli münasibətləri, Azərbaycan-Avropa İttifaqı kontekstində münasibətlərin inkişafı, Cənubi Qafqazda olan vəziyyətə dair fikir mübadiləsi aparmışıq. O cümlədən, xarici işlər nazirləri arasında siyasi məsləhətləşmələr mexanizmi mövcuddur", - deyə Ceyhun Bayramov almaniyalı həmkarı Yohan David Vadeful ilə birgə keçirdiyi mətbuat konfransında bildirib.

Almaniya Federativ Respublikasının xarici işlər naziri Yohan David Vadeful isə mətbuat konfransında Azərbaycanı Avropa üçün önəmli tərəfdaşlardan biri kimi dəyərləndirib. Fikirlərinə davam edən nazir vurğulayıb: "İqtisadi münasibətlər və enerji təchizatı ilə bağlı Azərbaycan-Almaniya əlaqələrinin inkişaf etdirilməsi istiqamətində böyük potensial var. Bu, bizim enerji təsərrüfatımız, həmçinin iqtisadiyyatımız üçün vacib dəstəkdir".



Genişlənən enerji əməkdaşlığı

Azərbaycanla Almaniya arasında iqtisadi əlaqələrin mühüm bir seqmentini genişlənən enerji əməkdaşlığı təşkil edir. Bəhs olunan görüşdə ölkəmizin Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyi vurğulanıb, bu ildən başlayaraq Azərbaycan qazının Almaniyaya ixracı qeyd olunub.

Hazırkı geosiyasi və geoiqtisadi kataklizmlər dönəmində Avropa ciddi təchizat sınaqları ilə üz-üzədir. Belə bir şəraitdə Azərbaycan ədalətli enerji siyasətinə sadiq qalmaqla Avropanın enerji təminatında mövqeyini daha da gücləndirir. 2022-ci ildə Azərbaycan ilə Avropa Komissiyası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Həmin sənəd Azərbaycanın Avropaya təbii qaz ixracının artırılmasını, enerji əməkdaşlığının dərinləşdirilməsini və bərpaolunan enerji sahəsində yeni imkanların yaradılmasını nəzərdə tutur.

Bu gün Azərbaycan artıq Avropa İttifaqının 10 üzv dövləti də daxil olmaqla, 16 ölkəyə təbii qaz ixrac edir. Ən önəmli cəhət odur ki, Azərbaycanın Avropaya qaz ixracı 2022-ci ildən əvvəlki 8 milyard kubmetrdən hazırda 13 milyard kubmetrə yüksəlib və 2027-ci ilədək bu göstəricinin azı 20 milyard kubmetrə çatdırılması planlaşdırılır. Cənub Qaz Dəhlizi isə Xəzər hövzəsini Avropa ilə birləşdirən alternativ enerji arteriyası kimi qitənin enerji təhlükəsizliyi strategiyasının əsas sütunlarından birinə çevrilib. TANAP və TAP kəmərləri Avropanın enerji mənbələrinin şaxələndirilməsi siyasətində xüsusi əhəmiyyət qazanaraq Azərbaycanın qitənin enerji təhlükəsizliyində rolunu daha da gücləndirib

O cümlədən, Azərbaycan qazının cari ilin yanvar ayından başlayaraq Almaniya bazarına daxil olması Bakı-Berlin münasibətlərində keyfiyyətcə yeni mərhələ yaradıb. Xatırladaq ki, ötən ilin iyun ayında SOCAR ilə Almaniyanın dövlət enerji şirkəti SEFE (Securing Energy for Europe) arasında 10 illik qaz alqı-satqısı müqaviləsi imzalanıb. Bu sənədə əsasən, SOCAR Avropada SEFE-yə qaz tədarük edəcək. İllik tədarük həcmi mərhələli şəkildə artırılaraq 15 teravatt/saatadək (təxminən 1,5 milyard kubmetr) çatdırılacaq. Müqavilə hasilat və infrastruktur, o cümlədən qaz kompressorları sahəsində investisiyaların cəlb olunmasını nəzərdə tutur ki, bütün bunlar da Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə sanballı töhfə kimi dəyərləndirilir.

Mübariz ABDULLAYEV

Qarşılıqlı əlaqələrə güclü impuls verən iqtisadi diplomatiya

Azərbaycanla Almaniya arasında əməkdaşlıq əlaqələri müxtəlif istiqamətləri əhatə edir. Bakıda baş tutan görüşdə ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb, siyasi, iqtisadi, sərmayələr, biznes, ənənəvi və alternativ enerji, bağlantılar, nəqliyyat, logistika, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib.

Söhbət zamanı ölkəmizin Orta Dəhlizdə önəmli roluna toxunulub, Azərbaycan-Avropa İttifaqı əlaqələrinin perspektivləri, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Həqiqətən də ikitərəfli gündəlik kifayət qədər geniş əhatə dairəsinə malikdir. Bakı ilə Berlin arasında tərəfdaşlığın inkişafında siyasi dialoqla yanaşı, iqtisadi diplomatiya da mühüm rol oynayır. Prezident İlham Əliyevin Almaniyaya səfərləri çərçivəsində aparıcı alman sənaye və biznes dairələrinin rəhbərləri ilə keçirdiyi görüşlər artıq ənənəvi xarakter alıb. Bu görüşlər Azərbaycanın investisiya imkanlarının təqdim olunması, yüksək texnologiyalar, yaşıl enerji, sənaye kooperasiyası, logistika və işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində yeni əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından mühüm platformadır.

Avropa İttifaqının ən böyük iqtisadiyyatı və sənaye lokomotivi olan Almaniya üçün təchizat zəncirlərinin dayanıqlığı və Mərkəzi Asiya bazarlarına çıxış strateji prioritetlər sırasındadır. Bu baxımdan Azərbaycan Berlin üçün həm də Avropa ilə Asiya arasında formalaşan yeni geoiqtisadi bağlantıların əsas halqalarından biridir.

Almaniya kimi ixracyönümlü iqtisadiyyat üçün Azərbaycanın aparıcı rol oynadığı Orta Dəhliz xüsusi strateji əhəmiyyət daşıyır. Bu marşrut Almaniya sənayesinə Mərkəzi Asiya bazarlarına daha etibarlı çıxış, kritik xammal tədarükünün şaxələndirilməsi və qlobal təchizat zəncirlərinin dayanıqlığının artırılması baxımından yeni imkanlar yaradır. Azərbaycan isə bu prosesdə Avropa ilə Asiya arasında logistika, enerji və iqtisadi əməkdaşlığın əsas qovşaqlarından biri kimi çıxış edir.

Ötən il Azərbaycan ilə Almaniya arasında ticarət dövriyyəsi 1,4 milyard ABŞ dolları təşkil edib. Cari ilin ilk doqquz ayında isə bu göstərici təxminən 1 milyard dollar olub. İndiyədək Azərbaycanda 280 alman şirkəti qeydiyyatdan keçib. Onlardan 210-u aktiv fəaliyyət göstərir. Almaniyadan Azərbaycana bu illər ərzində edilən investisiyaların həcmi 950 milyon ABŞ dollarına yaxındır, Azərbaycandan Almaniyaya isə 670 milyon dollardan artıq investisiya edilib.

Fərqli coğrafiyalarda vahid prinsip üzrə...



Azərbaycanın hərtərəfli strateji tərəfdaşlıq münasibətləri...

Müasir geosiyasi reallıqlar göstərir ki, milli maraqların qorunması üçün çevik diplomatiya, qarşılıqlı etimada əsaslanan münasibətlər və müxtəlif güc mərkəzləri ilə əməkdaşlığın düzgün balanslaşdırılması xüsusi əhəmiyyət daşıyır. Azərbaycan xarici siyasətində məhz bu prinsipləri əsas götürərək beynəlxalq əlaqələrini yeni məzmunla zənginləşdirir, ayrı-ayrı dövlətlərlə münasibətlərini strateji tərəfdaşlıq səviyyəsinə yüksəldir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mühüm xüsusiyyətlərindən biri Azərbaycanın heç bir geosiyasi mərkəzin maraqlarından asılı olmadan öz milli prioritetlərini müəyyənləşdirməsi və qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq qurmasıdır. Çin, Birləşmiş Ərəb Əmirlikləri və İtaliya ilə hərtərəfli - çoxşaxəli strateji tərəfdaşlıq münasibətlərinin formalaşdırılması bu siyasətin konkret nəticələrindəndir. Coğrafi mövqeləri, iqtisadi potensialları, beynəlxalq siyasi çəkiləri və qlobal proseslərdəki rolları fərqli olan bu dövlətlərlə münasibətlərin eyni strateji müstəvidə inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin geniş imkanlarını nümayiş etdirir.

Münasibətlərin inkişafında əsas düstur imzalanan sənədlərin siyasi dialoqa, iqtisadi sərmayələrə, enerji təhlükəsizliyinə, nəqliyyat bağlantılarına, texnoloji tərəqqiyə və beynəlxalq platformalarda qarşılıqlı dəstəyə çevrilməsidir. Azərbaycan tərəfdaşlıq münasibətlərini məhz bu prizmadan qiymətləndirir. Dövlətimizin məqsədi milli suverenliyi və müstəqil siyasəti qorumaqla yanaşı, ölkənin iqtisadi inkişafına, regional liderliyinə və beynəlxalq nüfuzuna töhfə verən əməkdaşlıq arealını genişləndirməkdir. Çin, BƏƏ və İtaliya ilə münasibətlər bu baxımdan Azərbaycanın milli maraqlarının müxtəlif istiqamətlər üzrə təmin olunmasının mühüm nümunələridir.

Çin: qlobal güclə tərəfdaşlığın yeni mərhələsi

Azərbaycanın Çin Xalq Respublikası ilə münasibətləri son illərdə keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Müstəqilliyin əldə edilməsinin ardından qurulan diplomatik münasibətlər iki ölkə arasında siyasi, iqtisadi və humanitar sahələrdə ardıcıl əməkdaşlıq formalaşdırıb. Bu münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi isə 2024-cü il iyulun 3-də Astanada Şanxay Əməkdaşlıq Təşkilatının sammiti çərçivəsində imzalanmış Birgə Bəyannamə ilə rəsmiləşib. Növbəti mühüm mərhələ 2025-ci il aprelin 23-də Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı hərtərəfli strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyanatın imzalanması olub. Beləliklə, Azərbaycan-Çin münasibətləri daha geniş siyasi və iqtisadi gündəliyə malik yeni mərhələyə keçib.

Bu sənədlərin siyasi əhəmiyyəti ondan ibarətdir ki, tərəflər bir-birini prioritet, etibarlı və qarşılıqlı faydalı tərəfdaş kimi qəbul etdiklərini bəyan ediblər. 2025-ci ildə imzalanan Birgə Bəyanatda xüsusi olaraq qeyd edilir ki, tərəflər "bir-birinin suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunmasında bir-birinə qətiyyətli dəstək" verirlər. Bu müddəa Azərbaycanın xarici siyasətində mühüm yer tutan suverenlik, ərazi bütövlüyü və beynəlxalq hüquqa hörmət prinsiplərinin Çinlə münasibətlərdə də əsas götürüldüyünü göstərir. Sənəddə Çinin Azərbaycanın sülh gündəliyinə dəstək verməsi və qarşıdurmaya əsaslanan geosiyasi oyunları səmərəsiz hesab etməsi də xüsusi siyasi məna daşıyır.

Azərbaycan üçün Çinlə strateji tərəfdaşlıq ilk növbədə müstəqil xarici siyasətin genişləndirilməsi, qlobal iqtisadi sistemdə mövqelərin möhkəmləndirilməsi və yeni inkişaf imkanlarının əldə olunması baxımından əhəmiyyətlidir. Dünyanın aparıcı iqtisadi güclərindən biri olan Çinlə münasibətlərin dərinləşdirilməsi ölkəmizin beynəlxalq iqtisadi əlaqələrinin şaxələndirilməsinə, investisiya imkanlarının genişlənməsinə və qeyri-neft sektorunun inkişafına əlavə stimul yaradır. Burada diqqətçəkən məqam ondan ibarətdir ki, Bakı-Pekin münasibətləri yalnız mövcud iqtisadi əlaqələrin genişləndirilməsi ilə məhdudlaşmır, həm də gələcək onilliklər üçün uzunmüddətli əməkdaşlıq istiqamətlərini müəyyənləşdirir.

Digər tərəfdən, bu tərəfdaşlıq Azərbaycanın beynəlxalq siyasi mövqeyinin güclənməsinə də xidmət edir. Çin kimi qlobal aktorla münasibətlərin qarşılıqlı hörmət və bərabərhüquqluluq prinsipləri əsasında qurulması Azərbaycanın müxtəlif siyasi və iqtisadi mərkəzlərlə balanslaşdırılmış əlaqələr yaratmaq qabiliyyətini nümayiş etdirir. Bu, ölkəmizin geosiyasi seçimlərini kənar təsirlərlə deyil, öz milli maraqları əsasında müəyyənləşdirdiyinin növbəti təsdiqidir.





İqtisadi şaxələndirmə və texnoloji inkişaf üçün yeni imkanlar

Azərbaycan-Çin hərtərəfli strateji tərəfdaşlığının mühüm istiqamətləri arasında iqtisadiyyat, nəqliyyat-logistika, investisiya, innovasiya və yaşıl enerji sahələrində əməkdaşlığın genişləndirilməsi xüsusi yer turur. Bu münasibətlərin Azərbaycan üçün əhəmiyyəti xüsusilə ölkəmizin Şərq-Qərb nəqliyyat bağlantılarında artan rolu fonunda daha aydın görünür. Çinlə Avropa arasında ticarət əlaqələrinin genişlənməsi, alternativ və etibarlı marşrutlara tələbatın artması Azərbaycanın tranzit imkanlarını strateji üstünlüyə çevirir. Orta Dəhlizin inkişafı bu baxımdan yalnız nəqliyyat layihəsi deyil, həm də Azərbaycanın beynəlxalq iqtisadi əlaqələr sistemində mövqeyini möhkəmləndirən mühüm vasitədir.

2024-cü il Birgə Bəyannaməsində tərəflər "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində əməkdaşlığın dərinləşdirilməsini, beynəlxalq multimodal daşımaların inkişafını və ərazilərindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin təhlükəsiz və fasiləsiz fəaliyyətinin təmin olunmasını dəstəklədiklərini bildiriblər. Bu müddəalar Azərbaycanın tranzit ölkə statusunun möhkəmləndirilməsi, Şərqlə Qərb arasında etibarlı körpü rolunun genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, Çinlə nəqliyyat sahəsində əməkdaşlıq Azərbaycanın Mərkəzi Asiya və Avropa bazarlarına çıxış imkanlarını artırır, ölkəmizin logistika və yükdaşıma potensialına əlavə investisiyaların cəlb olunmasına şərait yaradır.

İqtisadi əməkdaşlığın digər mühüm istiqaməti sənaye və investisiya layihələridir. Tərəflər sənaye, enerji, neft-qaz hasilatı və emalı, yaşıl enerji, informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı, tikinti materialları və infrastruktur sahələrində əməkdaşlığın genişləndirilməsini nəzərdə tuturlar. Bu istiqamətlər Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi strategiyası ilə üst-üstə düşür. Çin şirkətlərinin ölkəmizdə istehsal, texnologiya və infrastruktur layihələrində iştirakı yerli iqtisadi imkanların genişləndirilməsi, yeni iş yerlərinin yaradılması və müasir texnologiyaların tətbiqi baxımından əhəmiyyətlidir.

Xüsusilə yaşıl enerji və rəqəmsal transformasiya sahələrində əməkdaşlıq gələcəyə hesablanmış strateji seçimdir. Azərbaycanın bərpaolunan enerji potensialının reallaşdırılması, enerji istehsalının şaxələndirilməsi və yeni texnologiyaların tətbiqi ölkənin uzunmüddətli inkişaf hədəfləri ilə bağlıdır. Çinlə bu istiqamətdə əməkdaşlıq həm investisiya, həm də texnoloji təcrübə baxımından əlavə imkanlar yaradır. Eyni zamanda, rəqəmsal iqtisadiyyat, telekommunikasiya və innovasiya sahələrində əlaqələrin inkişafı Azərbaycanın müasir iqtisadiyyat quruculuğuna töhfə verə bilər.

Ən önəmli ştrixlərdən biri isə odur ki, Azərbaycan Çinlə əməkdaşlığı yalnız ticarət dövriyyəsinin artırılması kimi qiymətləndirmir. Qarşılıqlı əlaqələrdə yeni investisiyaların cəlbi, yeni texnologiyaların ölkəmizə gəlişi, tranzit potensialından daha səmərəli istifadə edilməsi xüsusi yer tutur. Çinlə hərtərəfli strateji tərəfdaşlıq Azərbaycan üçün yeni münasibətlər sistemində milli inkişaf prioritetlərinə xidmət edən mühüm siyasi-iqtisadi platformadır.

BƏƏ: strateji tərəfdaşlıqdan investisiya və enerji əməkdaşlığının yeni modelinə

Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətləri son illərdə xüsusi dinamika qazanaraq strateji əməkdaşlığın daha yüksək mərhələsinə yüksəlib. Bu münasibətlərin inkişafında Prezident İlham Əliyev və BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan arasında formalaşmış qarşılıqlı etimad və siyasi dialoq da mühüm rol oynayır. 2025-ci il sentyabrın 16-da BƏƏ Prezidentinin Azərbaycana səfəri zamanı iki ölkə arasında Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması əlaqələrin tarixində yeni mərhələnin başlanğıcı olub. Bu sənəd Azərbaycan-BƏƏ münasibətlərinin artıq ayrı-ayrı iqtisadi layihələr çərçivəsindən çıxaraq siyasi, iqtisadi, enerji, müdafiə, texnologiya və humanitar sahələri əhatə edən geniş əməkdaşlıq modelinə çevrildiyini nümayiş etdirir.

BƏƏ Azərbaycanın Yaxın Şərq və Körfəz regionunda mühüm tərəfdaşlarından biridir. Bu ölkə beynəlxalq maliyyə, ticarət, logistika və investisiya sistemində əhəmiyyətli mövqeyə malikdir. Azərbaycanın isə Avropa ilə Asiyanı birləşdirən coğrafi mövqeyi, zəngin enerji resursları, nəqliyyat infrastrukturu və regional bağlantı imkanları BƏƏ üçün cəlbedici əməkdaşlıq perspektivləri yaradır. Beləliklə, iki ölkənin iqtisadi potensialı bir-birini tamamlayır. Azərbaycanın tranzit və istehsal imkanları ilə BƏƏ-nin maliyyə, investisiya və logistika təcrübəsinin uzlaşdırılması qarşılıqlı faydalı layihələrin həyata keçirilməsi üçün əlverişli zəmin formalaşdırır.

Tərəfdaşlığın mühüm istiqamətlərindən biri enerji sahəsidir. Azərbaycanın enerji siyasətində ənənəvi enerji resurslarının ixracı ilə yanaşı, bərpaolunan enerji mənbələrinin inkişafı və yaşıl enerji keçidi də prioritet təşkil edir. BƏƏ-nin bu sahədə böyük təcrübəyə və investisiya imkanlarına malik olması əməkdaşlığın əhəmiyyətini daha da artırır. Xüsusilə "Masdar" şirkətinin Azərbaycanda həyata keçirdiyi və nəzərdə tutduğu layihələr ölkəmizin bərpaolunan enerji potensialının reallaşdırılmasına xidmət edir. Günəş və külək enerjisi layihələri, yaşıl enerji zonalarının yaradılması, enerji istehsalının şaxələndirilməsi Azərbaycanın uzunmüddətli iqtisadi və ekoloji hədəfləri baxımından mühüm əhəmiyyət daşıyır.

Ötən ilin sentyabrında imzalanan sənədlər və əldə olunmuş razılaşmalar əməkdaşlığın konkret iqtisadi məzmununu da ortaya qoydu. Enerji, nəqliyyat, rəqəmsal inkişaf, süni intellekt, turizm, əmək münasibətləri, investisiya və gəmiqayırma sahələrində bir sıra sənədlərin imzalanması tərəfdaşlığın geniş əhatə dairəsini göstərir. Xüsusilə Bakı Gəmiqayırma Zavodu ilə "Abu Dhabi Ports" arasında iki konteyner gəmisinin inşası və satışı haqqında müqavilə Azərbaycanın dəniz nəqliyyatı və logistika imkanlarının genişləndirilməsi baxımından diqqətəlayiqdir.

Bu münasibətlərin iqtisadi əsasını möhkəmləndirən digər mühüm addım 2025-ci il iyulun 9-da imzalanmış Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişidir. Bu saziş ticarətin liberallaşdırılması, investisiyaların artırılması, rəqəmsal iqtisadiyyat, xidmətlər və təchizat zəncirləri sahəsində əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaradıb. Bu, iki ölkə arasında siyasi yaxınlığın real iqtisadi nəticələrə çevrilməsinin göstəricisidir.

BƏƏ ilə tərəfdaşlıq Azərbaycanın Körfəz regionunda siyasi və iqtisadi mövqelərini möhkəmləndirməklə yanaşı, yeni investisiya mənbələrinə çıxışını asanlaşdırır və Azərbaycanın beynəlxalq əməkdaşlıq coğrafiyasını genişləndirir. Burada əsas prinsip qarşılıqlı maraqların uzlaşdırılmasıdır. Azərbaycan öz enerji, nəqliyyat və istehsal potensialını beynəlxalq investisiyalarla birləşdirərək iqtisadi inkişafını daha sürətləndirməyə, BƏƏ isə regionun etibarlı tərəfdaşı ilə uzunmüddətli əlaqələr qurmağa maraqlıdır. Bu baxımdan hərtərəfli BƏƏ ilə strateji tərəfdaşlıq milli maraqlara əsaslanan praqmatik xarici siyasətin uğurlu nümunəsidir.

İtaliya: Avropa istiqamətində strateji tərəfdaşlığın siyasi və iqtisadi dayağı

Azərbaycanın İtaliya ilə münasibətləri Avropa istiqamətində xarici siyasətinin ən mühüm və nəticəyönümlü istiqamətlərindən biridir. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il mayın 8-də qurulub. Sonrakı dövrdə siyasi dialoqun inkişafı, yüksək səviyyəli qarşılıqlı səfərlər və iqtisadi əməkdaşlığın genişlənməsi münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. 2014-cü il iyulun 14-də Romada Azərbaycan və İtaliya arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə qəbul edilib. 2020-ci il fevralın 20-də isə Romada imzalanmış Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsi haqqında Birgə Bəyannamə əlaqələrin hüquqi-siyasi əsaslarını daha da möhkəmləndirib.

İtaliya Azərbaycanın Avropadakı əsas ticarət tərəfdaşlarından biri olmaqla yanaşı, enerji ixracında da xüsusi yer tutur. Azərbaycan neftinin və qazının İtaliya bazarına çatdırılması iki ölkənin iqtisadi əlaqələrinə strateji məzmun verir. Xüsusilə Cənub Qaz Dəhlizinin mühüm tərkib hissəsi olan Trans-Adriatik Boru Kəmərinin (TAP) fəaliyyətə başlaması Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu daha da artırıb. İtaliya bu baxımdan Azərbaycan qazının Avropa bazarına çatdırılmasında əsas istiqamətlərdən biridir. Bu əməkdaşlıq həm də Avropanın enerji mənbələrinin və təchizat marşrutlarının şaxələndirilməsinə töhfə verən mühüm amildir. Prezident İlham Əliyev dəfələrlə İtaliya ilə münasibətlərdə enerji əməkdaşlığının xüsusi yer tutduğunu bəyan edib.

Azərbaycan- İtaliya münasibətləri yalnız enerji ixracı ilə məhdudlaşmır. Ölkəmiz İtaliya ilə sənaye, infrastruktur, tikinti, kənd təsərrüfatı, texnologiya, təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlıdır. İtaliya şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa və quruculuq prosesində iştirakı bu münasibətlərin yeni məzmununu nümayiş etdirir. İtaliya şirkətlərinin Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələrə cəlb olunması həm iqtisadi əlaqələrin genişlənməsinə, həm də Azərbaycanın postmünaqişə dövründə quruculuq siyasətinə beynəlxalq tərəfdaşların töhfə verməsinə imkan yaradır.

İki ölkə arasında əməkdaşlığın mühüm istiqamətlərindən biri də təhsil və humanitar əlaqələrdir. 2025-ci il oktyabrın 1-də Azərbaycan-İtaliya Universitetinin açılışı bu sahədə münasibətlərin inkişafında əlamətdar hadisə olub. Universitetin yaradılması yalnız təhsil layihəsi deyil, həm də iki xalq arasında elmi, mədəni və intellektual əlaqələrin dərinləşdirilməsinə xidmət edən uzunmüddətli investisiya sayılır.

İki ölkə arasında siyasi dialoq da yüksək səviyyədədir. Qarşılıqlı səfərlər bu münasibətləri mühüm bir əhəmiyyətə daşıyıb. Prezident İlham Əliyev 2025-ci il sentyabrın 30-da İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana səfəri zamanı iki strateji tərəfdaşlıq sənədinin münasibətlərin əsasını təşkil etdiyini və əməkdaşlığın artıq müxtəlif sahələrdə real nəticələr verdiyini xüsusi vurğulayıb. Dövlət başçısı vurğulayıb ki, bizim strateji tərəfdaşlığımız həm rəsmi sənədlərdə, həm həyatda, praktik işlərdə özünü büruzə verir.

İtaliya ilə münasibətlərin Azərbaycan üçün strateji əhəmiyyəti həm də Avropa İttifaqı ilə əlaqələrin inkişafına verdiyi töhfə ilə bağlıdır. İtaliya Avropanın aparıcı iqtisadi və siyasi dövlətlərindən biri kimi Azərbaycanın Avropa institutları ilə dialoqunda mühüm tərəfdaşdır. Bu ölkə ilə münasibətlərin yüksək səviyyədə olması Azərbaycanın Avropa məkanında iqtisadi və siyasi imkanlarını genişləndirir. Eyni zamanda, İtaliya üçün də Azərbaycan Cənubi Qafqazda etibarlı tərəfdaş, enerji və nəqliyyat təhlükəsizliyi baxımından mühüm ölkədir. Belə qarşılıqlı maraqlar münasibətlərin davamlılığını təmin edən əsas amillərdəndir.

Beləliklə, Azərbaycan-İtaliya strateji tərəfdaşlığı enerji ixracından başlayaraq geniş sahələri əhatə edir. Bu əlaqələr Azərbaycanın Avropa ilə əməkdaşlığının konkret nəticələrə əsaslandığını, milli maraqların qarşılıqlı fayda prinsipi ilə uzlaşdırıldığını göstərir. İtaliya ilə tərəfdaşlıq ölkəmizin Avropa istiqamətində mövqelərini möhkəmləndirməklə yanaşı, iqtisadi inkişaf və beynəlxalq nüfuzunun artırılması baxımından da mühüm strateji əhəmiyyət daşıyır.

Müxtəlif coğrafiyalar, vahid strateji məqsəd

Göründüyü kimi, Bakının hərtərəfli strateji əlaqələrə malik olduğu Çin, Birləşmiş Ərəb Əmirlikləri və İtaliya ilə münasibətləri çoxşaxəli və ölkəmiz üçün strateji anlam daşıyır. Bu dövlətlərin hər biri ölkəmiz üçün fərqli imkanlar və əməkdaşlıq perspektivləri yaradır. Bu əməkdaşlıq modelinin əsas üstünlüyü Azərbaycanın öz milli maraqlarını bütün münasibətlərin mərkəzində saxlamasıdır. Bakı tərəfdaşlıq qurduğu dövlətlərlə münasibətlərində qarşılıqlı hörmət, suverenliyə ehtiram, bərabərhüquqluluq və qarşılıqlı fayda prinsiplərindən çıxış edir. Prezident İlham Əliyevin həyata keçirdiyi çoxvektorlu xarici siyasət nəticəsində Azərbaycan artıq yalnız regional proseslərin iştirakçısı deyil, beynəlxalq əməkdaşlığın formalaşmasına təsir göstərən, müxtəlif güc mərkəzləri arasında etibarlı tərəfdaş kimi qəbul edilən dövlətdir. Strateji tərəfdaşlıq münasibətlərinin genişlənməsi də bu mövqenin möhkəmləndirilməsinə, ölkəmizin iqtisadi və siyasi imkanlarının artırılmasına, milli maraqlarının beynəlxalq səviyyədə daha etibarlı təmin olunmasına xidmət edir.

Pərviz SADAYOĞLU



Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə yeni mərhələ formalaşdırır

Azərbaycan ilə Böyük Britaniya arasında münasibətlər çoxşaxəli xarakter alır

Azərbaycanın xarici siyasətində ikitərəfli siyasi əlaqələrin inkişafı, qarşılıqlı etimadın möhkəmləndirilməsi və milli maraqlara əsaslanan tərəfdaşlıq münasibətlərinin qurulması xüsusi yer tutur. Bakı beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi mövqeyini gücləndirməklə yanaşı, müxtəlif regionları təmsil edən dövlətlərlə əməkdaşlığın dərinləşdirilməsinə də mühüm önəm verir. Bu baxımdan Avropa məkanı Azərbaycanın xarici siyasət xəttində xüsusi əhəmiyyət daşıyır. Avropa ölkələri ilə münasibətlər yalnız iqtisadi və enerji əməkdaşlığı ilə məhdudlaşmır, siyasi dialoq, təhlükəsizlik, nəqliyyat, investisiya və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi də əhatə edir.

Böyük Britaniya ilə münasibətlər isə bu əməkdaşlıq sistemində özünəməxsus yeri ilə seçilir. Azərbaycan müstəqillik əldə etdikdən sonra iki ölkə arasında formalaşan siyasi dialoq zaman keçdikcə strateji xarakter alıb. Londonun Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə verdiyi dəstək, xüsusilə Ermənistanın ölkəmizə qarşı işğal siyasəti yürütdüyü dövrdə və Vətən müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasında tutduğu mövqe ikitərəfli münasibətlərin siyasi əhəmiyyətini nümayiş etdirən mühüm amillərdəndir. Yeni dövrdə isə əməkdaşlıq yeni mərhələyə qədəm qoyur. Noyabrın 12-də imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə münasibətlərin hüquqi-siyasi əsaslarını daha da genişləndirərək müdafiə və təhlükəsizlik, ticarət, investisiya, enerji, nəqliyyat, təhsil və innovasiya sahələrini əhatə edir. Sənəd, eyni zamanda, Azərbaycanın beynəlxalq mövqeyinə, regional sülh gündəliyinə və milli maraqlarına uyğun əməkdaşlığın inkişafı baxımından mühüm perspektivlər açır.

İlk birgə müdafiə kibertəlimi

Böyük Britaniyanın Azərbaycandakı səfiri Dankan Norman keçirdiyi mətbuat konfransında bildirib ki, Böyük Britaniya ilə Azərbaycan arasında imzalanan Strateji Tərəfdaşlıq haqqında Bəyannamə ticarət, innovasiya-təhsil və müdafiə istiqamətləri üzərində qurulub.

O qeyd edib ki, Azərbaycan müdafiə və təhlükəsizlik baxımından Böyük Britaniya üçün dəyərli tərəfdaşdır. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının müdafiə üzrə dövlət naziri Lord Vernon Kioakerin Azərbaycana səfəri bu tərəfdaşlığa verilən önəmi bir daha göstərib.

Səfir vurğulayıb ki, cari il ilk birgə müdafiə kibertəlimi keçirilib və Böyük Britaniya ilə Azərbaycan arasında hərbi təlim əməkdaşlığı indiyədək görünməmiş səviyyəyə çatıb. Britaniya hərbi komandaları Azərbaycanda təlimlər keçirib, azərbaycanlı zabitlər isə Böyük Britaniyada Britaniya Ordusu və Kral Hərbi Dəniz Qüvvələrindən olan həmkarları ilə birlikdə təlimdə olublar.

"Kibertəhlükəsizlik, əməliyyat imkanları və müdafiə sənayesi sahələrində genişlənən əməkdaşlıqla yanaşı, bütün bunlar indiyədək ikitərəfli müdafiə əməkdaşlığı çərçivəsində həyata keçirilən ən iddialı proqramdır. Təhlükəsizlik sahəsində əməkdaşlığımız müdafiə ilə məhdudlaşmır. Narkotik vasitələrin qanunsuz dövriyyəsi, qanunsuz miqrasiya və kibercinayətkarlıq da daxil olmaqla, ağır mütəşəkkil cinayətkarlıqla mübarizədə Azərbaycanın hüquq-mühafizə orqanları ilə birlikdə çalışırıq", - deyə səfir bildirib.

Böyük Britaniya Bakının sülh təşəbbüslərini alqışlayır

Bəlli olduğu kimi, Azərbaycanın regionda yaratdığı yeni sülh reallığı qlobal dünya tərəfindən dəstəklənir. Xüsusilə, Avropa məkanı Şərq-Qərb ticarət yolu üzərində yeni təhlükəsizlik arxitekturasının qurulmasını alqışlayır - Qərb Bakının formalaşdırdığ sülh prosesinin beynəlxalq münasibətlər sisteminə yeni nəfəs gətirdiyini vurğulayır. Səfir çıxışında qeyd edib ki, Böyük Britaniya Cənubi Qafqazda sülh istiqamətində əldə olunan irəliləyişi alqışlayır. "Bura "Sülh Körpüsü" Təşəbbüsü, sərhədlərin delimitasiyası prosesi, Azərbaycanın Ermənistana yanacaq tədarükü, eləcə də "AzərTelecom" və "Telecom Armenia" arasında razılaşma daxildir. Davamlı və uzunmüddətli sülhün təmin edilməsi üçün bu dinamikanın dialoq və əməkdaşlıq vasitəsilə qorunub saxlanması mühüm əhəmiyyət daşıyır", - deyə Dankan Norman bildirib.

Səfir qeyd edib ki, Cənubi Qafqazın daha sülhsevər və əlaqəli gələcəyə doğru inamla irəlilədiyi bir vaxtda Böyük Britaniya və Azərbaycan arasındakı tərəfdaşlıq hər zamankından daha böyük əhəmiyyət daşıyır.

Birgə Bəyannamə iqtisadi artıma təkan verəcək

Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə ikitərəfli iqtisadi əlaqələrin də genişlənməsinə rəvac verəcək. Azərbaycanın ən yaxın iqtisadi tərəfdaşlarından sayılan Böyük Britaniya ilə əlaqələrin genişlənməsi hər iki dövlət üçün mühüm perspektivlər vəd edir. Səfir onu da vurğulayıb ki, Böyük Britaniya və Azərbaycan üçün tarixi əhəmiyyət daşıyan strateji tərəfdaşlıq uzunmüddətli dostluğumuzun möhkəm təməlləri üzərində qurulub. Birgə Bəyannamə iqtisadi artıma təkan verəcək, təhlükəsizliyi gücləndirəcək və innovasiyaları təşviq edəcək. Həmçinin Azərbaycan və Böyük Britaniya vətəndaşları üçün real faydaları olacaq. Səfir Böyük Britaniyanın Qarabağda aparılan bərpa və yenidənqurma işlərinə də töhfə verdiyini bildirib. O, Şuşa, Xankəndi, Ağdam və Füzulidə "Chapman Taylor" şirkətinin fəaliyyətini qeyd edib. "Böyük Britaniya 2020-ci ildə ANAMA-nın fəaliyyətinə dəstək göstərən ilk ölkə olmaqdan qürur duyur. Keçmiş məcburi köçkünlərin təhlükəsiz qayıdışını təmin etmək üçün minatəmizləmə işlərinə dəstəyimizi davam etdirəcəyik", - deyə səfir vurğulayıb.

Dankan Norman vurğulayıb ki, Naxçıvan Orta Dəhliz üzərində logistika mərkəzinə çevrilmək üçün real potensiala malikdir: "Britaniya şirkətlərinin dəmir yollarının modernləşdirilməsi, layihələrin idarə edilməsi və siqnalizasiya sahələrində geniş təcrübəsi var. Bu müzakirələri davam etdirmək üçün ticarət komandam Böyük Britaniyanın dəmir yolu sektorunun təcrübəsi ilə tanışlıq səfəri təşkil edir. Britaniya təcrübəsi artıq Naxçıvanın gələcəyinin formalaşmasına töhfə verir. Qarabağda da fəaliyyət göstərən "Chapman Taylor" şirkəti Naxçıvan şəhəri üçün 20 illik Baş plan hazırlayır".

Azərbaycan regionda davamlı sülhün və sabitliyin təmin olunmasına səy göstərir


Yeri gəmişkən, noyabrın 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Birləşmiş Krallığın xarici işlər, birlik və inkişaf məsələləri üzrə dövlət katibi Ed Milibənd arasında telefon danışığı baş tutub. Nazir Ceyhun Bayramov Ed Milibəndi dövlət katibi vəzifəsinə təyin olunması münasibətilə bir daha təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Telefon danışığı zamanı Azərbaycan-Birləşmiş Krallıq münasibətlərinin cari vəziyyəti və inkişaf perspektivləri, habelə yüksəksəviyyəli siyasi dialoqun davam etdirilməsinin əhəmiyyəti müzakirə olunub. Bu çərçivədə, liderlər səviyyəsində sonuncu Avropa Siyasi Birliyi (EPC) Zirvə Toplantısı zamanı keçirilmiş görüşün, eləcə də "Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə"nin qəbul edilməsinin ikitərəfli münasibətlərin inkişafında əhəmiyyəti vurğulanıb. Sənədin əhatə etdiyi istiqamətlər üzrə əməkdaşlığın konkret məzmunla zənginləşdirilməsi və praktiki nəticələrin əldə olunması perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər, həmçinin regional təhlükəsizlik məsələlərini müzakirə edib, Cənubi Qafqazda mövcud vəziyyət və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesi ətrafında fikir mübadiləsi aparıblar. Nazir Ceyhun Bayramov Azərbaycanın regionda davamlı sülhün və sabitliyin təmin olunmasına, kommunikasiyaların açılmasına və iqtisadi əməkdaşlığın genişləndirilməsinə yönəlmiş səyləri barədə qarşı tərəfə məlumat verib. Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər də müzakirə olunub.



P.İSMAYILOV

YAP nümayəndə heyəti Rusiyada keçirilən beynəlxaq tədbirdə iştirak edib









Rusiyanın hakim "Yedinaya Rossiya" Partiyasının dəvəti əsasında Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, YAP Təftiş Komissiyası sədrinin müavini, Milli Məclisinin deputatı Nizami Səfərov və YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadədən ibarət nümayəndə heyəti 15-16 noyabr tarixlərində Moskva şəhərində keçirilən "Millətlərin azadlığı uğrunda!" Hərəkatının Baş Assambleyasında (BA) iştirak edib.

Noyabrın 15-də Asiya, Avropa, Afrika və Latın Amerikasından 70-dən çox ölkənin siyasi partiyalarının nümayəndələrinin qatıldığı BA-nın "Hüquq sferasında neokolonializm. BMT Nizamnaməsinin norma və prinsiplərinə bütövlükdə riayət olunması və beynəlxalq hüququn əsas imperativi kimi qarşılıqlı əlaqələr" mövzusunda birinci sessiyasında çıxış edən YAP Təftiş Komissiyası sədrinin müavini, Milli Məclisinin deputatı Nizami Səfərov bildirib ki, beynəlxalq hüquqda hazırda əsas problem normaların olmaması deyil, onların bəzi dövlətlər, dövlət birlikləri və beynəlxalq təşkilatlar tərəfindən selektiv yanaşma əsasında və özbaşına tətbiq olunmasıdır. İkinci Dünya müharibəsindən sonra yaranmış sülh və təhlükəsizlik mexanizmi, o cümlədən BMT sisteminin əsaslı islahatlara ehtiyacının olduğunu deyən Nizami Səfərov bunun təsdiqi olaraq BMT Təhlükəsizlik Şurasının Qarabağla bağlı 1993-cü ildə qəbul etdiyi və onilliklər boyu icra olunmayan məlum dörd qətnaməsini xatırladıb. "Hüquqi sferada neokolonializm olduqca təhlükəli və çoxşaxəli bir fenomendir və geniş sahələri əhatə edir. Buna görə də, onunla mübarizədə uğur yalnız qlobal birliyin üzv dövlətlərinin əksəriyyətinin birləşmiş səyləri ilə əldə edilə bilər. Eyni zamanda, müasir beynəlxalq hüquqda təməli qoyulmuş hüquqi sənədlərin potensialından tam istifadə etməklə yanaşı, dünya dövlətlər ailəsində de-yure və de-fakto bərabərliyin təmin edilməsinə yönəlmiş yeni mexanizmlər hazırlamaq lazımdır" deyə YAP Təftiş Komissiyası sədrinin müavini əlavə edib.

Tədbirdə iştirak edən Ermənistanın Respublikaçılar Partiyasının nümayəndəsinin Azərbaycana qarşı böhtan xarakterli çıxışına cavab olaraq N.Səfərov Azərbaycanın 44 günlük müharibə və antiterror tədbirlərinin nəticəsində BMT Nizamnaməsinə və beynəlxalq hüquqa uyğun olaraq öz ərazi bütövlüyü və suverenliyini tam təmin etdiyini bildirib: "2020-ci il noyabrın 10-da Azərbaycan və Rusiya prezidentləri və Ermənistan baş nazirinin imzaladığı Bəyanat və 2025-ci il avqustun 8-də Vaşinqtonda "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətninin paraflanması da onu göstərir ki, işğaldan azad edilmiş əraziləri bu gün rəsmi İrəvan da Azərbaycanın tərkib hissəsi kimi tanıyır. Azərbaycanın ərazisində hansısa qondarma "Artsax" yox, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları var" - deyə YAP təmsilçisi vurğulayıb.


"Mədəni və humanitar sahələrdə neokolonializm. Rəqəmsallaşma dövründə informasiya-psixoloji qarşıdurma. Dünya xalqlarının rifahı naminə təhsil, elm, tibb və idman sahələrində əməkdaşlıq" mövzusunda üçüncü sessiyada çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova müasir dövrdə neokolonializmin yalnız siyasi və iqtisadi asılılıqla məhdudlaşmadığını, həmçinin mədəniyyət, təhsil, informasiya və rəqəmsal texnologiyalar vasitəsilə özünü büruzə verdiyini söyləyib: "Əgər XX əsrdə müstəmləkəçilik əsasən ərazi işğalı və inzibati idarəçilik formasında təzahür edirdisə, XXI əsrdə onun yeni formaları dövlətlərin və xalqların mədəni kimliyinə, tarixi yaddaşına və informasiya məkanına təsir göstərmək yolu ilə həyata keçirilir. Belə şəraitdə formal dövlət müstəqilliyinin mövcudluğu heç də hər zaman real mədəni, intellektual və informasiya suverenliyini təmin etmir".

Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə həyata keçirilən müstəqil və prinsipial xarici siyasətin qlobal miqyasda ədalətin, beynəlxalq hüququn və bərabərliyin təmin olunmasına mühüm töhfə verdiyini deyən YAP İdarə Heyətinin üzvü Hicran Hüseynova Azərbaycanın 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrliyi dövründə neokolonializmlə mübarizənin əsas prioritetlərdən biri olduğunu, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Bakı Təşəbbüs Qrupunun müstəmləkəçilikdən əziyyət çəkən xalqların hüquqlarının müdafiəsi, onların problemlərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması və beynəlxalq platformalarda səslərinin eşidilməsi istiqamətində fəaliyyət göstərdiyini bildirib.

Noyabrın 16-da YAP nümayəndələri "Millətlərin azadlığı uğrunda!" Hərəkatının Daimi Komitəsinin iclasında və Hərəkatın Baş Assambleyasının təntənəli açılış mərasimində iştirak ediblər. Açılış mərasimində Rusiya Prezidenti Vladimir Putinin tədbir iştirakçılarına müraciəti səsləndirilib, "Yedinaya Rossiya" Partiyasının sədri, Rusiya Federasiyası Təhlükəsizlik Şurası sədrinin müavini Dmitri Medvedev və Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının sədri Vyaçeslav Volodin çıxış ediblər.

Daha sonra BA-nın plenar iclasında çıxış edən YAP İdarə Heyətinin üzvü Hicran Hüseynova Azərbaycanın müasir neokolonializmə qarşı mübarizə, mədəni-humanitar suverenliyin qorunması və ədalətli beynəlxalq əməkdaşlıq sisteminin qurulması istiqamətində fəaliyyətindən bəhs edib, Heydər Əliyev Fondunun mədəni-humanitar sahədəki və Yeni Azərbaycan Partiyasının beynəlxalq fəaliyyətinə toxunub. Tədbirdə iştirak edən Ermənistanın Respublikaçılar Partiyasının nümayəndələrinin Azərbaycana qarşı qərəzli çıxışına cavab olaraq isə YAP təmsilçisi bu il ərazi bütövlüyünü bərpa etməsinin 6-cı ildönümünü qeyd edən Azərbaycanın ərazilərinin 20 faizinin 30 ilə yaxın müddətdə işğal altında olduğunu, bu müddətdə bir milyondan artıq azərbaycanlının köçkün şəraitində yaşadığını xatırladıb. Torpaqlarını işğaldan azad etdikdən sonra Azərbaycanın bu gün Cənubi Qafqazda yeni sabitlik modeli formalaşdırdığını deyən H.Hüseynova Ermənistanın Respublikaçılar Partiyasının rəhbərlərinin vaxtilə Azərbaycan ərazilərinin işğalında, dinc soydaşlarımızın evlərindən qovulmasında və Xocalı soyqırımının törədilməsində iştirak etdiyini vurğulayaraq, həmin partiyanın nümayəndələrinin bu gün də ölkəmizə qarşı qərəzli çıxışlarını davam etdirdiyini və belə şəxslərin beynəlxalq platformalarda Azərbaycana qarşı böhtan xarakterli fikirlər səsləndirməsinə imkan yaradılmamalı olduğunu söyləyib.

Səfər çərçivəsində nümayəndə heyəti ilə Çin Kommunist Partiyası, "Belaya Rus" Partiyası və Vyetnam Kommunist Partiyasının nümayəndələri arasında ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparılıb.



Milli Məclisin iclasında... 2027-ci ilin büdcə zərfinə daxil olan qanun layihələrinin birinci oxunuşda müzakirəsi başa çatıb

Noyabrın 18-də Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasda gündəliyin 8-ci məsələsi - Meşə Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Yerin təki haqqında", "Tullantılar haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Tibbi sığorta haqqında", "Avtomobil yolları haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Büdcə sistemi haqqında", "Dövlət borcu haqqında", "Gömrük tarifi haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Hesablama Palatası haqqında", "Dövlət satınalmaları haqqında" və "Balıqçılıq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ətrafında müzakirələr davam etdirilib.

Müzakirələrdə parlamentin komitə sədrləri Fazil Mustafa, Zahid Oruc, deputatlar Aydın Hüseynov, Əlibala Məhərrəmzadə, Azər Badamov, Məşhur Məmmədov, Rəşad Mahmudov çıxış edərək bəzi qeyd və təkliflərini diqqətə çatdırıblar. Millət vəkilləri vurğulayıblar ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatların əsas istiqamətlərindən biri ölkə iqtisadiyyatının şaxələndirilməsi, özəl sektorun inkişafının sürətləndirilməsi, investisiya mühitinin yaxşılaşdırılması və dayanıqlı iqtisadi artımın təmin edilməsidir. Çıxışlarda təqdim olunan qanun layihəsi biznes mühitinin yaxşılaşdırılması, vergi inzibatçılığının təkmilləşdirilməsi və iqtisadi fəallığın təşviqi baxımından dövlətin həyata keçirdiyi iqtisadi siyasətin məntiqi davamı kimi dəyərləndirilib. Sənəddə təklif olunan dəyişikliklərin iqtisadi suverenliyimizin möhkəmləndirilməsi, milli sahibkarlığın gücləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun daha da inkişaf etdirilməsi baxımından vacibliyi qeyd olunub.

Komitə sədri Azər Əmiraslanov deputatların söylədikləri fikirlərə münasibət bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra spiker Sahibə Qafarova gündəliyin növbəti iki məsələsinin Milli Məclisin qərar layihələri olduğunu söyləyib. O bildirib ki, bu Milli Məclisin 2027-ci il üçün xərclər smetası haqqında və Hesablama Palatasının 2027-ci il üçün xərclər smetası haqqında qərar layihələridir. Milli Məclisin sədri qeyd edib ki, həmin qərar layihələri bu gün müzakirə olunacaq, amma qəbul edilməyəcək. Büdcə zərfinə daxil olan sənədlər üçüncü oxunuşda təsdiqlənən zaman onlarla birlikdə qəbul ediləcək.

Sonra Parlamentin işlər müdiri Firudin Hacıyev Milli Məclisin 2027-ci il üçün xərclər smetası haqqında məlumatı təqdim edib.

O, növbəti il üçün dövlət büdcəsində Milli Məclisin saxlanması məqsədilə nəzərdə tutulan vəsaitin deputatların, Parlament Aparatının və İşlər İdarəsinin əməkdaşlarının, eləcə də deputat köməkçilərinin əməkhaqlarının, məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta və işsizlikdən sığorta haqlarının, habelə malların, iş və xidmətlərin satın alınması və bir sıra digər maddələr üzrə xərclərin ödənilməsi üçün nəzərdə tutulduğunu deyib.

Sonra Hesablama Palatasının sədr müavini Nəsir Sadıqov Palatanın 2027-ci il üçün xərclər smetası haqqında məlumat verib. O, 2027-ci ilin dövlət büdcəsində Hesablama Palatasının xərclər smetası üçün 14,3 milyon manat vəsait nəzərdə tutulduğuni deyib. Xərclər smetasında yer alan əməyin ödənişi, malların, işlərin, xidmətlərin satınalınması, sosial ödənişlər və digər istiqamətlər üzrə ayırmalar barədə danışıb.

İclasda parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa Mülki Məcəllədə və "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsini təqdim edib. O diqqətə çatdırıb ki, qanun layihəsi ölkə Prezidenti İlham Əliyevin imzası ilə Milli Məclisə daxil olub. Layihədə qeyri-hökumət təşkilatlarının hüquqi statusunun, təşkilati strukturunun, fəaliyyət prinsiplərinin və hesabatlılıq mexanizmlərinin təkmilləşdirilməsi nəzərdə tutulur.

Qeyd edilib ki, sənəddə bir neçə istiqamət üzrə dəyişikliklər təklif olunur.

Birinci istiqamət qeyri-hökumət təşkilatlarının növlərinin qanunvericilik səviyyəsində müəyyənləşdirilməsi ilə bağlıdır. Layihəyə əsasən, ictimai birliklərin peşə, sosial-humanitar, mədəniyyət və incəsənət, təhsil və elm, ekologiya, hüquq, iqtisadiyyat sahələri, habelə qanunla müəyyən edilmiş digər növlər üzrə yaradılması nəzərdə tutulur. Fondlar isə ictimai faydalı fond, xeyriyyə fondu və qanunla müəyyən edilmiş digər növlər üzrə təsnif edilir. Hər bir ictimai birliyin və fondun yalnız bir növdə yaradılması təklif olunur.

İkinci istiqamət təşkilatların təsis edilməsi və idarə olunması ilə bağlı tələblərin dəqiqləşdirilməsidir. Belə ki, Mülki Məcəllədə və müvafiq sahə qanunlarında təşkilatların adlandırılması, təsis xüsusiyyətləri və nizamnamə tələbləri ilə bağlı dəyişikliklər nəzərdə tutulur.

Üçüncü istiqamət maliyyə şəffaflığının, hesabatlılığının və məsuliyyət mexanizmlərinin gücləndirilməsi ilə bağlıdır. Layihəyə əsasən, təşkilatların əmlakının formalaşma mənbələri və onlardan istifadə barədə təfsilatlı illik maliyyə hesabatlarının təsdiqi, eləcə də vəsaitlərin alınması, toplanması, verilməsi və köçürülməsi zamanı terrorçuluğun maliyyələşdirilməsi risklərinin minimuma endirilməsinə yönəlmiş daxili prosedurların müəyyənləşdirilməsi nəzərdə tutulur.

Dördüncü istiqamət qeyri-hökumət təşkilatlarının fəaliyyətinin dayandırılması, bərpası və ləğvi ilə bağlı hüquqi əsasların yenilənməsidir. Layihədə qanunvericilik tələblərinin pozulması, şəffaflığın təmin edilməməsi, idarəetmə orqanlarının səlahiyyət müddətləri ilə bağlı dövlət reyestrində müvafiq dəyişikliklərin aparılmaması və digər hallar üzrə təşkilatların fəaliyyətinin dayandırılması əsasları genişləndirilir.

Beşinci istiqamət isə xarici qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin fəaliyyətinin hüquqi tənzimlənməsidir. Bu qurumların dövlət qeydiyyatı, müvafiq sazişlərin bağlanması və qüvvədə olma müddətinin uzadılması, eləcə də fəaliyyətlərinin şəffaflığı ilə bağlı tələblər dəqiqləşdirilir.

Layihənin keçid müddəalarına əsasən, qanun qüvvəyə mindikdən sonra artıq dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatlarının 30 gün müddətində nizamnamələrini yeni tələblərə uyğunlaşdıraraq yenidən dövlət qeydiyyatı üçün müraciət etmələri nəzərdə tutulur.

Sonra Hüquq siyasət və dövlət quruculuğu komitəsinin üzvü Azay Quliyev məsələ barədə bu komitənin rəyini bildirib. O qeyd edib ki, təklif olunan dəyişikliklər daha peşəkar QHT-lərin formalaşmasını və sahəvi rəqabətin artmasını təmin edəcək, QHT sektorunda hesabatlılığı, şəffaflığı və səmərəliliyi artıracaq, vətəndaş cəmiyyəti institutlarının güclənməsinə və inkişafına əlavə stimul verəcək.

Beləliklə Milli Məclisin iclası başa çatıb.

Nardar BAYRAMLI

“Müasir gənclik və dövlətçilik məfkurəsi: rəqəmsal məkanda milli maraqlar”







Noyabrın 17-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının və Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə “Müasir gənclik və dövlətçilik məfkurəsi: rəqəmsal məkanda milli maraqlar” mövzusunda tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin büstünü ziyarət edərək önünə gül dəstələri düzüblər.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş nitqi ilə açan YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev müasir dövrdə gənclərin dövlətçilik ənənələrinin qorunmasında və milli maraqların müdafiəsində rolundan danışıb. O qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gənclərin milli-mənəvi dəyərlərə bağlı, vətənpərvər və müasir dünyagörüşlü şəxsiyyətlər kimi yetişməsi prioritet istiqamətlərdəndir.

YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva çıxışında Azərbaycanda həyata keçirilən gənclər siyasətinin əsas istiqamətlərinə toxunub. O, gənclərin ictimai-siyasi proseslərdə fəal iştirakının, onların bilik və bacarıqlarının inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb. Bildirilib ki, gənclər müasir texnologiyaların yaratdığı imkanlardan yararlanaraq milli maraqların qorunmasına öz töhfələrini verməlidirlər.

YAP Veteranlar Şurasının üzvü Misir Mərdanov dövlətçilik düşüncəsinin formalaşmasında tarixi irsin, milli-mənəvi dəyərlərin qorunmasının və təhsilin əhəmiyyətindən bəhs edib. O, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və inkişafı istiqamətində həyata keçirdiyi siyasətə toxunaraq, bu zəngin irsin gənc nəsil tərəfindən dərindən öyrənilməsinin vacibliyini vurğulayıb. Qeyd edilib ki, gənclərin intellektual səviyyəsinin yüksəldilməsi, onlarda vətəndaşlıq məsuliyyətinin formalaşdırılması ölkənin gələcək inkişafı üçün mühüm şərtlərdəndir.

YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərli müasir dövrdə rəqəmsal məkanın ictimai rəyin formalaşmasında, milli maraqların qorunmasında, mənəvi dəyərlərin və dövlətçilik ənənələrinin təbliğində rolundan bəhs edib.

Prezident İlham Əliyevin YAP-ın VIII Qurultayında diqqətə çatdırdığı fikirlərə toxunan Nurlan Qələndərli informasiya təhlükəsizliyinin milli təhlükəsizliyin ayrılmaz tərkib hissəsi olduğunu vurğulayaraq gənclərin sosial medianın imkanlarından səmərəli istifadə etmələrinin, həmçinin dezinformasiya kampaniyalarına qarşı ardıcıl mübarizə aparmalarının önəminə diqqəti cəlb edib.

İnteraktiv formada davam edən tədbirdə iştirakçıların sualları cavablandırılıb.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Azərbaycan - Aİ tərəfdaşlığı güclənir

Azərbaycan Avropa İttifaqı (Aİ) ilə münasibətlərində daim beynəlxalq hüququn norma və prinsiplərinə, qarşılıqlı hörmət və bərabərhüquqluluq əsasında qurulan əməkdaşlığa üstünlük verir. Bu mövqe imzalanan sənədlərdə, diplomatik danışıqlarda və parlamentlərarası münasibətlərdə ardıcıl şəkildə əksini tapıb. Ölkəmiz öz milli maraqları çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlığa böyük önəm verir.

Bu gün Azərbaycanla qarşılıqlı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin davam və inkişaf etdirilməsi Aİ üçün xüsusi əhəmiyyət daşıyır. Çünki Cənubi Qafqaz regionunun güc mərkəzi kimi çıxış edən, mühüm geostrateji üstünlüklərə malik olan Azərbaycanla əməkdaşlıq siyasi və iqtisadi perspektivlər nöqteyi-nəzərindən önəmli dividendlər vəd edir.

Ardıcıl səfərlər, verilən mesajlar...

Nəzərə alaq ki, Azərbaycan Avropa İttifaqının bir sıra üzv ölkələri ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ilə bütövlükdə regionumuzda yeni vəziyyət yaranıb. Bu baxımdan yeni mərhələdə Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlıq münasibətləri bütövlükdə regionumuz üçün önəmlidir. Eyni zamanda, Azərbaycanla Avropa İttifaqı arasında siyasi dialoqun intensivliyi xüsusilə diqqətəlayiqdir. Son illər ərzində Aİ-nin rəhbər şəxsləri davamlı olaraq Bakıya səfər ediblər. Diplomatik praktikada belə ardıcıl səfərlərə nadir hallarda təsadüf olunur. Bu, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin fəal şəkildə inkişaf etdiyini və Brüsselin Bakını Cənubi Qafqazdakı uzunmüddətli strategiyasında əsas tərəfdaş kimi gördüyünü göstərir.



Hazırkı mərhələnin digər xüsusiyyəti Avropa İttifaqının Cənubi Qafqazdakı mövcudluğunu gücləndirmək üçün getdikcə daha çox iqtisadi mexanizmlərdən istifadə etməsidir. Nəqliyyat infrastrukturunun, enerji şəbəkələrinin, rəqəmsal rabitənin və ticarət əlaqələrinin inkişaf etdirilməsi təklifləri uzunmüddətli əməkdaşlıq modelinə doğru keçidi göstərir. Bu, əsasən siyasi dialoqa yönəlmiş əvvəlki yanaşmalardan köklü surətdə fərqlənir. Hazırda Aİ faktiki olaraq, investisiya qarşılıqlı fəaliyyəti modelini təklif edir. Bu yanaşma hər iki tərəf üçün faydalıdır. Belə bir model Avropa üçün öz iqtisadi təhlükəsizliyini gücləndirmək və strateji əhəmiyyətli regionda iştirakını genişləndirmək deməkdir. Azərbaycan üçün isə iqtisadiyyatını şaxələndirmək, yeni investisiyalar cəlb etmək və dünyanın ən böyük iqtisadi bloku ilə əməkdaşlığı genişləndirmək imkanı təqdim edir.

Digər tərəfdən, Azərbaycan Avropa İttifaqının bir sıra platformalarında təmsil olunur, tədbirlərində fəal iştirak edir. Yeri gəlmişkən, noyabrın 16-da Avropa İttifaqının təşəbbüsü ilə Brüssel şəhərində regionlararası təhlükəsizlik və bağlantılar mövzusuna həsr olunmuş ikinci nazirlər toplantısı keçirilib. Ölkəmizi toplantıda xarici işlər nazirinin müavini Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. İki sessiyadan ibarət nazirlər toplantısının birinci sessiyasında Qara dəniz hövzəsində təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsi, ikinci sessiyasında isə Regionlararası Bağlantılar Gündəliyinin həyata keçirilməsi məsələləri ətrafında müzakirələr aparılıb.

Aİ sülh gündəliyini dəstəkləyir

Beynəlxalq müstəvidə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması hazırda da diqqət mərkəzindədir. Avropa İttifaqı sülh prosesinə təkcə siyasi və ya humanitar nöqteyi-nəzərdən baxmır. Bu gün sülh böyük iqtisadi layihələrin həyata keçirilməsi üçün ilkin şərtə çevrilir. Nəqliyyat marşrutları, enerji şəbəkələri, rəqəmsal rabitə və beynəlxalq ticarət sabit regional mühitin olmasını tələb edir. Məhz buna görə də Brüssel sərhəd bölgələrini dəstəkləmək üçün maliyyə mexanizmləri və iki cəmiyyət arasında iqtisadi əməkdaşlığın inkişafına yönəlmiş təşəbbüslər təklif edir. Bu, uzunmüddətli sülhün möhkəmləndirilməsi üçün iqtisadiyyatın təsirli vasitələrdən birinə çevrildiyi modelə tədrici keçidi göstərir.

Bu kontekstdə əsas amil Azərbaycanın müxtəlif qlobal güc mərkəzləri ilə eyni vaxtda münasibətlər qurmaq qabiliyyəti olaraq qalır. Avropa İttifaqı ilə strateji tərəfdaşlıq ABŞ, Mərkəzi Asiya dövlətləri, Çin və digər beynəlxalq tərəfdaşlarla aktiv əməkdaşlıqla paralel inkişaf edir. Belə bir model ölkənin xarici siyasət imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir. Bu, həmçinin Avropa İttifaqı üçün Azərbaycanla qarşılıqlı fayda əsasında münasibətlər qurmaq, konkret layihələr və investisiyalar təklif etmək zərurəti deməkdir. Avropa siyasətinin iqtisadiyyata və infrastruktura yönəlməsi də məhz bu amillə izah edilir.

Ölkəmiz Aİ-nin nazirlər toplantısında təmsil olunub

Hər iki sessiyada çıxış edən nazir müavini Samir Şərifov Azərbaycan ilə Avropa İttifaqı arasında son dövrlərdə müşahidə olunan müsbət dinamikanın əhəmiyyətini qeyd edib. Avropa və Mərkəzi Asiya arasında enerji, nəqliyyat və rəqəmsal bağlantılar baxımından müstəsna rola malik Azərbaycanın təşəbbüsü ilə indiyədək həyata keçirilmiş infrastruktur layihələrinin Orta Dəhlizin formalaşmasına əhəmiyyətli töhfə verdiyi vurğulanıb. Bu sahələrdə konkret layihələrin həyata keçirilməsi istiqamətində regional və beynəlxalq tərəfdaşlarla əməkdaşlığın davam etdirilməsinə Azərbaycanın qətiyyətli olduğu diqqətə çatdırılıb.

Bununla yanaşı, Azərbaycanın öncül rolu ilə davam etdirilən sülh və normallaşma prosesinin regionda sülh, sabitlik və əməkdaşlıq üçün geniş imkanlar yaratdığı bildirilib. Qeyd olunub ki, bu proses geniş Qara dəniz regionunda sülh və sabitliyin möhkəmlənməsinə töhfə verir, həmçinin regionlararası bağlantı layihələrinin həyata keçirilməsi üçün əlverişli zəmin yaradır.

Nardar BAYRAMLI

Orta Dəhliz və Lapis Lazuli marşrutu beyin mərkəzlərinin diqqətində...

Beynəlxalq müstəvidə beyin mərkəzlərinin rolu informasiya təhlükəsizliyi və texnoloji inqilab, həmçinin siyasət problemlərinin artan mürəkkəbliyi fonunda getdikcə güclənir. Beyin mərkəzlərinin yeni bilik yaratmaq, sosial problemləri təhlil etmək, cəmiyyətə innovativ ideyalar təqdim etmək kimi funksiyaları var. Onların əsas məqsədi ictimai əhəmiyyət kəsb edən məsələlərdə qərarvericilərə tövsiyələr hazırlamaq və geniş sosial müzakirə mövzuları yaratmaqdır.

Son illər regionumuzda, eləcə də Azərbaycanda beyin mərkəzləri həm sayca, həm də fəaliyyət istiqamətləri baxımından artıb. Azərbaycanda fəaliyyət göstərən beyin mərkəzləri digər ölkələrin beyin mərkəzləri ilə fəal əməkdaşlıq edir. Noyabrın 17- də Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi (BMTMM) və Əfqanıstan Strateji Araşdırmalar Mərkəzinin (CSS) birgə təşkilatçılığı ilə “Trans-Avrasiya Tranzit və Ticarət Marşrutlarının Strateji Yaxınlaşması: Əlaqəlilik və Davamlı İnkişaf” mövzusunda keçirilən dəyirmi masa da buna nümunədir.

Azərbaycan və Əfqanıstanın beyin mərkəzləri arasında ilk dəfə belə formatda təşkil olunan birgə tədbir çərçivəsində iki ölkənin müvafiq qurumlarının, beyin mərkəzlərinin və ekspert ictimaiyyətinin nümayəndələri regional nəqliyyat bağlantıları, iqtisadi əməkdaşlıq, münaqişədən sonrakı bərpa və dayanıqlı inkişaf məsələləri ətrafında geniş fikir mübadiləsi aparıblar. BMTMM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib ki, Azərbaycan və Əfqanıstan arasında dərin tarixi köklərə malik münasibətlərin möhkəmləndirilməsi, iqtisadi əməkdaşlığın və regional nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafı əhəmiyyətlidir. O, Azərbaycanın Əfqanıstanın suverenliyini və müstəqil qərarvermə hüququnu dəstəklədiyini, təhsil və təqaüd proqramları vasitəsilə ölkənin inkişafına töhfə verməyə çalışdığını vurğulayıb. Həmçinin BMTMM ilə CSS arasında əməkdaşlığın regional dialoqun gücləndirilməsinə və gələcək birgə layihələrin həyata keçirilməsinə töhfə verəcəyinə ümid etdiyini bildirib.



CSS-in baş direktoru Əbdül Hai Qanit Əfqanıstanın Azərbaycanı regional siyasətdə mühüm tərəfdaş hesab etdiyini və ölkəsinin ikitərəfli siyasi, iqtisadi və diplomatik əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bildirib. O, çıxışında Azərbaycanın Kabildə səfirlik açmasının, ticarət və investisiya əlaqələrinin inkişafının, eləcə də Lapis Lazuli dəhlizi vasitəsilə nəqliyyat bağlantılarının gücləndirilməsinin əhəmiyyətini vurğulayıb. Həmçinin regional əməkdaşlığın, qarşılıqlı etimadın və institusional əlaqələrin möhkəmləndirilməsinin hər iki ölkə üçün yeni imkanlar yaradacağı qeyd edilib.

Fərid Şəfiyevin moderatorluğu ilə keçirilən “Orta Dəhliz və Lapis Lazuli Dəhlizinin uzlaşdırılması” mövzusunda birinci paneldə CSS-in Regional Əlaqəlilik və İqtisadi Əməkdaşlıq üzrə tədqiqatçısı Obaidullah Yaqoobi “Dəhlizlərin uzlaşdırılmasının təmin edilməsi: kommersiya baxımından etibarlı və strateji cəhətdən səmərəli nəqliyyat əlaqələrinin qurulması” mövzusunda çıxış edib.

“Azərbaycan Dəmir Yolları” QSC-nin Strateji Kommunikasiya üzrə baş müşaviri Fuad Şahbazov “Avrasiyada əlaqələndirmə, sülhün qurulması: Azərbaycanın TRIPP və regional əməkdaşlıq üzrə strateji baxışı”, BMTMM-in baş məsləhətçisi Roza Bayramlı isə “Əfqanıstanın Avrasiya nəqliyyat əlaqələrində rolu: Azərbaycan-Mərkəzi Asiya əməkdaşlığı üçün imkanlar” mövzularında təqdimatlar ediblər. Müzakirələr zamanı Orta Dəhliz və Lapis Lazuli Dəhlizinin vahid regional nəqliyyat və logistika şəbəkəsinin mühüm elementləri kimi inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, bu marşrutların uzlaşdırılması Əfqanıstanın beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsinə, Azərbaycanın tranzit potensialının artırılmasına, Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında ticarət əlaqələrinin dərinləşdirilməsinə mühüm töhfə verə bilər. Həmçinin nəqliyyat infrastrukturunun əlaqələndirilməsi, gömrük prosedurlarının sadələşdirilməsi, logistika əməliyyatlarının səmərəliliyinin artırılması və rəqəmsal həllərin tətbiqi məsələlərinə toxunulub.

Əbdül Hai Qanitin moderatorluğu ilə keçirilən ikinci panel isə “Münaqişədən sonrakı bərpa və dayanıqlı inkişaf” mövzusuna həsr olunub. Əfqanıstan Xarici İşlər Nazirliyinin Beşinci Siyasi İdarəsinin direktoru Ghuncha Gul Arman “Təcrid şəraitində inkişaf yolu: 2021-ci ildən sonrakı Əfqanıstanda bərpa və inkişaf”, Cənubi Qafqaz Araşdırmaları Mərkəzinin (CSSC) baş elmi işçisi Eldar Həmzəli “Tarixi başlanğıc, perspektivli gələcək: Qarabağın yenidən qurulması”, BMTMM-in aparıcı məsləhətçisi Vüsal Quliyev isə “Rəqəmsallaşma və bağlantılar: Qarabağın regional inkişaf mərkəzinə çevrilməsi” mövzularında təqdimatlarla çıxış ediblər. Paneldə münaqişədən sonrakı bərpa prosesləri, infrastrukturun yenidən qurulması, iqtisadi inkişafın təmin edilməsi, rəqəmsallaşma və regional əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb. Əfqanıstanın 2021-ci ildən sonrakı inkişaf çağırışları ilə Azərbaycanın Qarabağda həyata keçirdiyi bərpa və yenidənqurma işləri müqayisəli müzakirə mövzusu olub. Bildirilib ki, dayanıqlı inkişafın təmin edilməsi üçün nəqliyyat və kommunikasiya infrastrukturunun inkişafı, rəqəmsal bağlantıların genişləndirilməsi və regional iqtisadi inteqrasiyanın gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır.

Müzakirə olunan məsələlərin praktiki aspektləri ilə yerində tanış olmaq məqsədilə Əfqanıstan Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Strateji Araşdırmalar Mərkəzinin nümayəndə heyətinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə - Şuşa, Ağdam, Xocalı və Füzuli şəhərlərinə səfəri nəzərdə tutulur.

Nardar BAYRAMLI

Strateji tərəfdaşlığı möhkəmləndirən mühüm addım

Azərbaycan və ABŞ aqrar sahədə əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirib

Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədovun Birləşmiş Ştatlara səfəri çərçivəsində Vaşinqtonda ABŞ Ticarət Palatasında ölkənin aparıcı kənd təsərrüfatı şirkətlərinin iştirakı ilə hibrid formatda dəyirmi masa keçirilib.Tədbirdə Azərbaycan və ABŞ arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi, investisiya imkanları, müasir texnologiyaların və süni intellektin aqrar sektorda tətbiqi müzakirə olunub. ABŞ Ticarət Palatasının Yaxın Şərq, Mərkəzi Asiya və Türkiyə üzrə vitse-prezidenti Cennifer Miel ölkələrimiz arasında Strateji Tərəfdaşlıq Xartiyasının imzalanmasının əhəmiyyətinə toxunaraq sənəddən irəli gələn mühüm təşəbbüslərin Amerika şirkətləri tərəfindən dəstəkləndiyini bildirib. ABŞ şirkətlərinin Azərbaycan iqtisadiyyatının strateji sahələrindən biri olan kənd təsərrüfatında təmsil olunmaq niyyətini ifadə edib.

Qeyd edək ki, dəyirmi masa çərçivəsində ABŞ-ın kənd təsərrüfatı texnikası istehsalçısı olan "John Deere" şirkəti ilə imzalanması nəzərdə tutulan strateji tərəfdaşlıq sazişinin detallarına da diqqət çəkilib. Həmçinin, iki ölkənin Kənd Təsərrüfatı Nazirlikləri arasında qarşılıqlı Anlaşma Memorandumunun imzalanması istiqamətində işləri davam etdirilir.

Yüksəksəviyyəli nümayəndə heyətləri arasında anlaşmalar

Azərbaycan nümayəndə heyəti ilə ABŞ-ın kənd təsərrüfatı nazirinin birinci müavini Stephen Vade arasında keçirilən görüşdə də aqrar sahədə əməkdaşlığın genişləndirilməsi, kənd təsərrüfatı məhsullarının ticarət dövriyyəsinin artırılması, elmi-tədqiqat və innovasiya sahələrində əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub. Tərəflər iki ölkə arasında aqrar sahədə tərəfdaşlığın ikitərəfli münasibətlərdə inkişaf etdirilməli vacib istiqamətlərdən biri olduğunu, bu cür dialoqların əməkdaşlığı daha da genişləndirmək üçün gözəl imkanlar yaratdığını qeyd ediblər.

S.Vade ABŞ Kənd Təsərrüfatı Departamentinin (USDA) Kənd Təsərrüfatı Tədqiqatları Xidməti (ARS) və Milli Ərzaq və Kənd Təsərrüfatı İnstitutu (NIFA) ilə Azərbaycanın müvafiq qurumları arasında birgə elmi-tədqiqat layihələrinin və eksperimental sınaqların həyata keçirilməsinin əhəmiyyətinə toxunub, bu istiqamətdə əlaqələrin daha da gücləndiriləcəyini xatırladıb.

Hər iki ölkənin nümayəndə heyətləri arasında keçirilən digər görüşlərdə də müştərək əməkdaşlığın perspektivlərinə nəzər salınıb. ABŞ şirkətlərinin Azərbaycanın aqrar sektorunda müasir texnologiyalar, kənd təsərrüfatı texnikası, məlumatların təhlili, süni intellekt və proqnozlaşdırma sahələrində əməkdaşlıq edəcəyi nəzərdə tutulur. Kənd təsərrüfatı naziri Məcnun Məmmədovun fikrincə, birgə əməkdaşlıq ölkəmizdə ekstensiv kənd təsərrüfatından intensiv kənd təsərrüfatına keçidin, daha az resursdan istifadə etməklə daha yüksək əlavə dəyərin yaradılmasının və ölkənin ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə öz töhfəsini verə bilər.



Əlverişli biznes mühiti ABŞ investorları üçün maraq doğurur

Azərbaycan nümayəndə heyətinin Vaşinqtona səfəri iki ölkə arasında aqrar sahədi münasibətlərin çoxşaxəli inkişafı üçün yeni dövrün başlandığını bir daha təsdiqləyir. Nəzərə alsaq ki, son aylarda iki dövlət arasında iqtisadi və siyasi bloklarda ardıcıl xarakter alan sıx təmasların artması və qətiyyətli iradənin ortaya qoyulması Bakı-Vaşinqton münasibətlərinin tamamilə yeni dövrə daxil olmasını təmin etməkdədir. Bu tədbir Azərbaycan və ABŞ arasında iqtisadi tərəfdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi, biznes mühitinin inkişafı və müasir aqrar modellərin tətbiqi üçün əlverişli imkanların yaradılması və özəl sektor nümayəndələri arasında əlaqələrin gücləndirilməsi üçün mühüm fürsət sayıla bilər.

Yaxın vaxtlarda e-kənd təsərrüfatı, süni intellekt, yeni aqrar transformasiyaya keçid sahələrində nəzərdə tutulan sənədlərin imzalanması isə Azərbaycan və ABŞ arasında iqtisadi əlaqələrin dərinləşməsinə, yeni investisiya layihələrinin reallaşdırılmasına və uzunmüddətli strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcək. Eyni zamanda, Azərbaycan iqtisadiyyatına texnologiya və inovasiyanın transferinin sürətlənməsinə gətirib çıxaracaq.

Azad ərazilərdə Birləşmiş Ştatların aqrar təcrübəsindən istifadə olunacaq

ABŞ şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının müasir, iqlimə davamlı və rəqəmsal texnologiyalara əsaslanan modelə də marağı böyükdür. Bu ərazilərdə beynəlxalq standartlara uyğun aqrar istehsal modelinin qurulmasında ABŞ-ın elmi-tədqiqat təcrübəsindən yararlanmaq nəzərdə tutulur. Eləcə də, torpaq və su ehtiyatlarından daha səmərəli istifadə edilməsində ABŞ-da tətbiq olunan müasir texnologiyaların ölkəmizə gətirilməsinin təşviqi istisna edilmir. Tərəflər arasında imzalanacaq Anlaşma Memorandumunda azad ərazilərdə bitkiçilik, heyvandarlıq, balıqçılıq və akvakultura, innovativ texnologiyaların tətbiqi və digər sahələrdə əməkdaşlıq perspektivləri də nəzərdə tutulub.

E.CƏFƏRLİ

Azərbaycanlı alimlərdən çağırış...

Gəlin dünyanı xilas edək

Bu gün təqribən 8,3 milyard insan yaşayan Yer kürəsi Günəş sisteminin üçüncü planetidir. O, bu sistemdə mövcud olan 8 planetdən yeganəsidir ki, orada canlı həyat mövcuddur.

Yer kürəsinin radiusu 6371 km, ekvatorunun uzunluğu isə 40 075 km -dir. Ay Yer kürəsinin yeganə təbii peykidir. Yəni Yer kürəsinin ətrafında təbii olaraq dövr edən yeganə göy cismidir. Ay Yerin ətrafında təqribən 27,3 günə bir tam dövr edir. Günəş isə planetlər ətrafında deyil, planetlər Günəş ətrafında, Ay isə Yerin ətrafında dövr edir. Başqa sözlə, Ay yerin "kosmosdakı yeganə yoldaşı" və Yerin yeganə təbii peyki hesab olunur.

Bundan əlavə, insan tərəfindən hazırlanıb, raketlərlə kosmosa göndərilən və yer kürəsinin (və ya başqa göy cisimlərinin) ətrafında orbitdə fırlanan süni peyklər (cihazlar) minbərlədir. Onlar Rabitə peykləri, Meteoroloji peyklər, GPS peykləri (yerimizi dəqiq müəyyən etməyə kömək edir). Elmi peyklər (kosmosu və Yer kürəsini araşdırır) insanların hazırladığı kosmik aparatlardan ibarətdir. Hesablamalara görə indiyədək Yer orbitinə 27 500 süni peyk buraxılmışdı. Onların hal-hazırda kosmosda olan 18 840-dək 16 000-i işlək, 8 660 isə artıq orbitdən çıxmışdır.

Yer səthinin böyük hissəsinin ümumi sahəsi 361,1 mln km2 ərazisini Dünya okeanları tutur. Quru ərazinin sahəsi isə 149,1 mln. km2-dir. Yer kürəsində ən çox qəbul edilən bölgüyə görə 7 materik (qitə) var. Onların sahələri təqribən aşağıdakı kimidir:

Asiya 44.6 milyon km2
Afrika 30,4 milyon km2
Şimalı Amerika 24,2 milyon km2
Cənubi Amerika 17,8 milyon km2
Antarktida 14,2 milyon km2
Avropa 10,0 milyon km2
Avstraliya/Okeaniya 8,5 miyon km2

Dövlətlərə gəlincə demək olar ki, halhazırda dünyada mövcud olan195 dövlətdən 193 dövlət BMT-nin həqiqi üzvüdür. Vatikan və Fələstin isə BMT-nin üzvi yox, müşahidəçi dövlət statuslarındadırlar.

Tam tanınmamış dövlətlər də bu siyahıya daxil edilsə, dünyadakı dövlətlərin sayı 256-ya bərabər olar.

Yer səthinin quruda ən aşağı nöqtəsi Ölü dənizin sahilləri olmaqla bərabər -dəniz səviyyəsindən təxminən 430 metr aşağıda yerləşir. Amma yer kürəsinin ən aşağı nöqtəsi ümumiyyətlə dənizin altında, Sakit okeanda yerləşir. Mariana çökəkliyindəki Çallencer dərinliyi isə - təqribən 10 900 (11 034) metr dərinlikdədir.

Yerin dəniz səviyyəsindən ən yüksək nöqtəsi Everest dağıdır. Everest 8 848,86 metr Himalay dağında, Nepal ilə Çin (Tibet) sərhəddində yerləşir.

Yer kürəsini qarışqadan başlayaraq, kəpənək, quşlar, balıqlardan vəhşi heyvanlara və digər canlılara qədər təqribən 8 milyard canlı varlıq əhatə edir. Yer kürəsində bütün canlı varlıqların çox kiçik bir hissəsini əvvəldə dediyimiz kimi hazırda həyatda olan 8,3 milyard insan təşkil edir. Modern.az-ın 24 avqust 2024-cü ildə "New Enqland Journal of Medicine" jurnalına əsasən verdiyi xəbərə görə 8,04 milyarda çatan dünya əhalisinin 11 % Avropada, 5%-i Şimalı Amerikada, 9% Cənubi Amerikada, 15% Afrikada, 60% isə Asiyada yaşayır. Dünya əhalisinin 49% kəndlərdə, 51% isə şəhərlərdə yaşayır.... Dünyada insanların 26%-i 15 yaşına çatmadan ölür, 66%-i 15-64 yaş aralığında ölür, insanların yalnız 8%-i 65 və daha yuxarı yaşa qədər ömür sürür.

Yer kürəsində ən çox olan canlı insan, heyvan və ağaclar deyil, mikroorqanizmlər və xüsusilə bakteriyalar say baxımından ağlasığmaz dərəcədə çoxdur. Yalnız insan orqanizmində belə trilyonlarla bakteriya hüceyrələri yaşayır. Qarışqa isə heyrətamiz sayda olub, təqribi hesablamalara görə dünyada 20 katrilyona (20 000 000 000 000 000) yaxındır. Yəni təxminən Yer kürəsində hər bir insana 2,4 milyon qarışqa düşür. Bəli, bütün bunlar təxmini hesablamalardır, çünki bütün canlıları dəqiq saymaq mümkün deyildir. Amma insanlar yeganə canlı varlıqdır ki, onların şüuru, düşüncəsi var və onlar fikirləşib qərar qəbul edə bilirlər, onlar Planetimiz üçün bu və ya digər səviyyədə cavabdeh olmaqla yanaşı onun mövcudluğu üçün məsuliyyət daşıyırlar. Hər gün insanlar təbiəti çaylarda, göllərdə, dəniz və



okeanlarda faunanı məhv edir, bizə təmiz hava verən meşələri qırıb, yandırır, atmosferi zəhərləyirlər.

Planet ulduzların ətrafında fırlanan lakin öz işığı olmayan böyük göy sistemidir. Məsələn, Günəş sistemində 8 Planet var: Merkuri, Venera, Yer, Mars, Yupiter, Saturin, Uran və Neptun. Yer də onlardan biri olmaqla bərabər o, daim günəşin ətrafında dövr edir.

Ulduzlar öz işığını və istiliyini yaradan göy sistemidir. Bilirik ki, Günəş bir ulduzdur, bəs onda Planet nədir və onun funksiyası nədən ibarətdir?

Planet özü işıq buraxmır. O, yalnız ulduzların işığını əks etdirir və onun ətrafında fırlanır. Yer, Günəşin ətrafında fırlanan müstəqil bir Planetdir. Əsas fərqə gəl dikdəsə ulduzun öz işığı var, Planetinsə öz işığı yoxdur o, yalnız ulduzlardan gələn işığı əks etdirir. Məsələn, gecələr göydə gördüyümüz bütün ulduz kəhkəşanı Günəş kimi parlayan çox-çox uzaqdakı ulduzlardır.

Bəzən Planetlər də bizə ulduz kimi parlaq görünür, amma onlar ulduz deyil.

Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) hesabatlarına görə insanları daim qorxutmaqla bərabər onları vahimədə saxlayan Nüvə Başlıqlarının Sayı 2026-cı ilin əvvəlinə olan məlumatlar aşağıdakı kimidir:

Hazırda Dünyada 9 ölkənin sahib olduğu ümumi nüvə başlıqlarının sayı təqribən 12 187-dir. Dünyanı dağıtmaq üçün bu nüvə başlıqlarının cüzi bir hissəsi kifayət edir. Bəs nə üçün dünyanın aparıcı dövlətləri saxlanması belə çətin olan bu qədər nüvə başlığı istehsal etmişlər və bu başlıqlardan təqribən 9 745-i indi də hərbi ehtiyat məqsədi ilə saxlanılır, 4 012-si isə operativ məqsədlər üçün raketlərdə, yeraltı və yerüstü hərbi bazalarda gizlədilir.

Nüvəyə sahib olan 9 ölkə - Rusiya, ABŞ, Çin, Fransa, Böyük Britaniya, Pakistan, Hindistan, İsrail və Şimali Koreyadır. Ümumi nüvə ehtiyatının təqribən 90% qədər Rusiya və ABŞ-ın payına düşür. Dünyada ən böyük nüvə potensialına malik ölkə əlbəttə Rusiyadır. Hazırda Rusiyanın hərbi arsenalında 5889 nüvə bombası və ya raket başlığı var. Təbii ki, ikincilik ABŞ-yə məxsusdur. Pentaqonun ixtiyarında 5244 nüvə başlığı və ya bombası mövcuddur. İlk üçlüyü Çin tamamlayır. Çinin arsenalında 410 nüvə silahı var. Bu siyahıya əsasən Fransanın 290, Böyük Britaniyanın 225, Pakistanın 170, Hindistanın 164, İsrailin 90 nüvə bombası və ya reket başlığı mövcuddur. Siyahıda sonuncu yeri tutan Şimali Koreyanın cəbbəxanasında cəmi 30 nüvə silahı mövcuddur.

Hesablamalar göstərir ki, bir radioaktiv Uran-235 atomunun partlamasından 200 MeV enerji ayrılır. 1 qr Uran-235 parçalanan zaman təqribən 2,5 ton kömürün verdiyi qədər enerji buraxır. Bir qədər də irəli getsək 1 kq Uran-235-in bütün nüvələrinin bölünməsi nəticəsində 5,1 x 1026 MeV enerji ayrılır ki, bu da 20 min ton trotilin (trinitrotoluol) partladılması zamanı yaranan enerjinin miqdarına bərabərdir. Bunun əksinə olaraq Hidrogen izotoplarının birləşib, 1 kq heliumun alınması zamanı (Hidrogen bombası) ayrılan enerjinin miqdarı 26,2 x 1026 MeV-a bərabərdir ki, bu da 100 min ton trotilin (trinitrotoluol) partlamasından alınan enerjiyə bərabər olur. Sonda belə nəticəyə gəlmək olur ki, sintez reaksiyalarından ayrılan enerjinin miqdarı (Hidrogen bombası), parçalanma reaksiyalarından ayrılan enerjinin miqdarından təxminən 5 dəfə çox olur.

Dünyanın bütün bu kataklizmalardan qorunması üçün ilk öncə ikibaşlı oyun oynamaqdan uzaqlaşaq. Biz bu gün öz adımızdan və eləcə də Planetimizin gələcək taleyinə laqeyd olmayan milyardlarla insanlar adından xahiş edirik, ey insanlar gəlin Dünyada gedən bütün müharibələri dayandırın deyək, Dünyanı oda-alova salmayın deyək. Bizim hamımızın bir Dünyamız var və onu qorumalıyıq. Kim Dünyada Sülhün tərəfdarıdırsa gəlin birləşək, bir olaq və nə qədər gec deyilsə Dünyamızı qoruyaq, onu gələcək qırğınlardan xilas edək. Axı, o, sizin, bizim və hamımızın yeganə evidir!

Dünyanın xilas etmək üçün ilk olaraq əlbəttə iqtisadiyyatda, siyasətdə, diplomatiyada və hər yerdə ikili standartlardan təmizlənmək gərəkdir. Bunun üçün insanların bir araya gəlməsi, lazımi qərarlar qəbul etməsi vacibdir. Siyasi baxışlar arasında körpülər qurmaq, qlobal sülhə və sabitliyə verilən töhfə, ortaq dəyərləri ümumiləşdirmək lazımdır. Yerin təkinin vəhşicəsinə istismarına son qoyulmalıdır. Təbiəti sevməli, ekologiyanın qızıl qanunlarına əməl edilməlidir.

Prof.İsmayıl Əliyev,
Bakı Dövlət Universitetinin
"Həyat fəaliyyətinin təhlükəsizliyi"
kafedrasının müdiri,
Prof. Abbas Abbasov,
Bakı Dövlət Universitetinin
"İngilis dili" kafedrasının müdiri .

Mərkəzi Bankın nəzarət funksiyaları artırılır

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Qanuna dəyişikliyi təsdiqləyib. Dəyişikliyə əsasən, Mərkəzi Bank (MB) çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi risklərini həm ayrı-ayrı maliyyə qurumları, həm də onların daxil olduğu maliyyə qrupları üzrə qiymətləndirəcək.Qanuna əsasən, 48-1-ci maddə yeni redaksiyada verilib. Əvvəlki redaksiyada MB-nin bu sahədə maliyyə institutlarına nəzarət funksiyası vardı. Yeni redaksiya həmin nəzarətin maliyyə qruplarına necə tətbiq ediləcəyini və risklərin hansı hallarda yenidən qiymətləndiriləcəyini müəyyən edir.

Maliyyə institutlarının fəaliyyəti daha dərindən araşdırılacaq

Dəyişikliyə əsasən, maliyyə qurumlarında gözlənilə bilən risklər mütəmadi olaraq qiymətləndiriləcək. Maliyyə qurumu yenidən təşkil olunarsa, son sahibi, fəaliyyət sahəsi, müştəri qrupu və ya fəaliyyət göstərdiyi coğrafiya dəyişərsə, MB risklərə yenidən baxacaq. Maliyyə institutunun və ya onun daxil olduğu maliyyə qrupunun idarə edilməsində və ya əməliyyatlarında əhəmiyyətli dəyişikliklər baş verdikdə, benefisiar mülkiyyətçilər dəyişdikdə, maliyyə institutunun fəaliyyət növləri, müştəri qrupu, habelə coğrafi fəaliyyət dairəsində dəyişiklik olduqda, əvvəlki təqvim ili ilə müqayisədə əməliyyatların intensivliyi və ya məbləğində 40 faiz və ya daha çox artım olduqda qiymətləndirmə təkrar həyata keçiriləcək. Yəni, MB qrupun fəaliyyətinə daha geniş spektrdən yanaşacaq. Bu qaydalar bankların, həyatın yığım sığortası ilə məşğul olan sığortaçıların, təkrarsığortaçıların, sığorta vasitəçilərinin, investisiya şirkətlərinin, investisiya fondlarının və onların idarəçilərinin, eləcə də xarici investisiya fondlarının nümayəndəliklərinin daxil olduğu maliyyə qruplarını da əhatə edir.

Çirkli pulların yuyulması üzrə risklərin qiymətləndirilməsi

MB çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, eləcə də hədəfli maliyyə sanksiyaları üzrə nəzarət üçün maliyyə qurumundan və ya qrupdan sənəd və məlumatları tələb edəcək. Təqdimetmə müddəti sorğuda göstəriləcək. Nəzarətin tezliyi və intensivliyi isə qurumun riskləri, daxili nəzarət sistemi və ölkə üzrə müəyyən edilmiş risklər nəzərə alınmaqla seçiləcək. Bu nəzarət sxemi üzrə də bankların, həyatın yığım sığortası fəaliyyəti ilə məşğul olan yerli və xarici sığortaçıların, təkrarsığortaçıların və sığorta vasitəçilərinin, investisiya şirkətlərinin, investisiya fondlarının və onların idarəçilərinin, xarici investisiya fondlarının nümayəndəliklərinin daxil olduğu maliyyə qruplarına əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə məqsədləri ilə nəzarət konsolidasiya olunmuş formada həyata keçiriləcək.

Yeri gəlmişkən, MB cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində maliyyə institutlarının və maliyyə qruplarının risk profillərini, o cümlədən "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunun tələblərinə riayət edilməməsi risklərini də dövri olaraq qiymətləndirəcək.

Ümumilikdə, MB nəzarət tədbirlərinin həyata keçirilməsi məqsədilə maliyyə institutlarından və yaxud maliyyə qruplarından yazılı sorğu əsasında sənəd və məlumat tələb etmək hüququna malik olacaq. Tələb olunan sənəd və məlumatlar MB-nin sorğusunda müəyyən edilmiş müddətdə təqdim edilməlidir. Nəticədə, MB-nin maliyyə institutları və maliyyə qrupları üzrə risk əsaslı nəzarət və məlumat tələb etmək səlahiyyətləri daha aydın və əhatəli şəkildə müəyyən ediləcək.

Lizinq şirkətlərinin reyestri aparılacaq

Qeyd edək ki, maliyyə sabitliyinin təmin edilməsi MB-nin başlıca məqsədlərindən biridir. Riskə əsaslanan nəzarət, yerində yoxlama və yeni maliyyə xidmətlərinin xüsusi rejimdə sınaqdan keçirilməsi də bu tələblərdən irəli gəlir. MB ödəniş təşkilatlarına, elektron pul təşkilatlarına və ödəniş sistemi operatorlarına lisenziya vermək səlahiyyətlərinə malik olmaqla yanaşı, həmin təşkilatlardakı maliyyə nəzarətini daha optimal şəkildə həyata keçirməkdədir. Eləcə də, son illərdə MB-yə çirkli pulların yuyulmasına qarşı daha geniş nəzarət funksiyası verilib. 2024-cü ildə "MB haqqında Qanun"un 48-1-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizə və nəzarət mexanizmləri gücləndirilib, bu sahədə hesabatlılıq və şəffaflıq tələbləri genişləndirilib. Həmçinin, bir müddət əvvəl bank qanunvericiliyinə edilmiş dəyişikliklə, oktyabrın 1-dən etibarən bir təqvim ili ərzində 20 min manatdan artıq elektron köçürmələr MB-nın Maliyyə Monitorinqi Xidməti tərəfindən monitorinq olunaraq qiymətləndirilir. Bu qaydalar daha çox çirkli pulların yuyulmasının qarşısının alınmasına yönəlmiş mübarizə tədbirlərinin elementidir. Digər bir dəyişikliyə əsasən, maliyyə lizinqi və kraudfandinq platformalarına nəzarət də MB-yə həvalə edilib. MB 2026-cı ilin dekabrından lizinq şirkətlərinin, 2027-ci ilin yanvar ayından isə kraudfandinq platforması operatorlarının reyestrini aparacaq və onların fəaliyyətinə nəzarət edəcək.



E.CƏFƏRLİ

19 noyabr 2026-cı il, cümə axşamı № 211 (7278)

APEC-in 33-cü zirvə toplantısı işə başlayıb

Çinin Şencen şəhərində Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının (APEC) 33-cü zirvə toplantısı işə başlayır.

Çin tərəfi açıqlıq, innovasiya və əməkdaşlığı "APEC Çin ili"nin prioritetləri elan edib. Tədbir "Birlikdə tərəqqi üçün Asiya-Sakit okean cəmiyyəti quraq" devizi ilə keçirilir. Şencen zirvə toplantısının noyabrın 18-nə aid proqramına açılış mərasimi, rəsmi tədbirlər və ziyafət daxildir. Bundan başqa, ikitərəfli görüşlər keçirilir. Noyabrın 19-da isə plenar iclas olacaq. Sammitin sonunda liderlərin yekun bəyanatının qəbul edilməsi gözlənilir.

Budəfəki zirvə toplantısının önəmli məqamlarından biri isə heç şübhəsiz dünya ictimaiyyətinin maraqla gözlədiyi ABŞ, Çin və Rusiya liderlərinin tarixdə ilk üçtərəfli görüşünün məhz APEC sammiti çərçivəsində keçirilməsi olacaq. Çünki ABŞ, Rusiya və Çin liderlərinin üçtərəfli görüşü beynəlxalq siyasətdə böyük geosiyasi əhəmiyyət daşıya biləcək hadisə hesab olunur. Noyabrın 19-na nəzərdə tutulan görüşə bir müddətdir hazırlıq gedir. Belə bir görüşün əsas əhəmiyyəti dünyanın 3 böyük dövlətinin münasibətlərinin birbaşa



müzakirə olunması, beynəlxalq təhlükəsizlik məsələlərində mümkün razılaşmaların əldə edilməsidir. Görüşdə müzakirə olunacaq məsələlər barədə tərəflərin dəqiq açıqlamaları olmasa da, ehtimal olunur ki, görüşdə geosiyasi məsələlər, nüvə silahlarının azaldılması, İran və Yaxın Şərq məsələsi, Ukrayna müharibəsi kimi mövzular diqqətdə olacaq.

Qeyd edək ki, bu, Çinin APEC sammitinə artıq sayca 3-cü ev sahibliyidir. Təşkilatın 2001-ci ildəki sammiti Şanxayda, 2014-cü ildə isə Pekində keçirilmişdi.

APEC Asiya-Sakit okean regionu boyunca azad ticarət və iqtisadi əməkdaşlığı inkişaf etdirməyə çalışan 21 üzvün təşkil etdiyi forumdur. Onun təsisçiləri Avstraliya, Bruney, İndoneziya, Kanada, Malayziya, Yeni Zelandiya, Sinqapur, ABŞ, Tailand, Filippin, Cənubi Koreya və Yaponiyadır. Bundan əlavə, təşkilatın tərkibinə Çin, Meksika, Papua-Yeni Qvineya, Çili, Rusiya, Vyetnam, Peru, habelə Çinin Honkonq xüsusi inzibati ərazisi və Tayvan adası da daxildir. APEC-in üzvü olan tərəflər qlobal ümumi daxili məhsulun 60 faizini təmin edir. APEC-in ticarət məsələləri ilə bağlı müzakirə aparmaq üçün illik zirvə toplantısı keçirilir. Sonuncu sammit keçən il oktyabrın sonu və noyabrın əvvəlində Cənubi Koreyanın Kyoncu şəhərində baş tutub.

Çin görüşləri...

Dünən ikitərəfli, bu gün üçtərəfli...

Çinin Şencen şəhərində Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının (APEC) 33-cü zirvə toplantısı işə başlayıb. Çin tərəfi açıqlıq, innovasiya və əməkdaşlığı "APEC Çin ili"nin prioritetləri elan edib. Tədbir "Birlikdə tərəqqi üçün Asiya-Sakit okean cəmiyyəti quraq" devizi ilə keçirilir. Şencen zirvə toplantısı çərçivəsində noyabrın 18-də açılış mərasimi, rəsmi tədbirlər və ziyafət baş tutub. Eyni zamanda dünən bir sıra ikitərəfli görüşlər də baş tutub. Noyabrın 19-da isə plenar iclas olacaq. Sammitin sonunda liderlərin yekun bəyanatının qəbul edilməsi gözlənilir.



Budəfəki zirvə toplantısının önəmli məqamlarından biri isə heç şübhəsiz dünya ictimaiyyətinin maraqla gözlədiyi ABŞ, Çin və Rusiya liderlərinin tarixdə ilk üçtərəfli görüşünün məhz APEC sammiti çərçivəsində keçirilməsi olacaq. Xatırladaq ki, görüş noyabrın 19-na planlaşdırılıb. Görüşə bir müddətdir hazırlıq gedir. Belə bir görüşün əsas əhəmiyyəti dünyanın 3 böyük dövlətinin münasibətlərinin birbaşa müzakirə olunması, beynəlxalq təhlükəsizlik məsələlərində mümkün razılaşmaların əldə edilməsidir. Görüşdə müzakirə olunacaq məsələlər barədə tərəflərin dəqiq açıqlamaları olmasa da, ehtimal olunur ki, görüşdə geosiyasi məsələlər, nüvə silahlarının azaldılması, İran və Yaxın Şərq məsələsi, Ukrayna müharibəsi kimi mövzular diqqətdə olacaq. Qeyd edək ki, bu, Çinin APEC sammitinə artıq sayca 3-cü ev sahibliyidir. Təşkilatın 2001-ci ildəki sammiti Şanxayda, 2014-cü ildə isə Pekində keçirilib. Xatırladaq ki, APEC Asiya-Sakit okean regionu boyunca azad ticarət və iqtisadi əməkdaşlığı inkişaf etdirməyə çalışan 21 üzvün təşkil etdiyi forumdur. Onun təsisçiləri Avstraliya, Bruney, İndoneziya, Kanada, Malayziya, Yeni Zelandiya, Sinqapur, ABŞ, Tailand, Filippin, Cənubi Koreya və Yaponiyadır. Bundan əlavə, təşkilatın tərkibinə Çin, Meksika, Papua-Yeni Qvineya, Çili, Rusiya, Vyetnam, Peru, habelə Çinin Honkonq xüsusi inzibati ərazisi və Tayvan adası da daxildir. APEC-in üzvü olan tərəflər qlobal ümumi daxili məhsulun 60 faizini təmin edir. APEC-in ticarət məsələləri ilə bağlı müzakirə aparmaq üçün illik zirvə toplantısı keçirilir. Sonuncu sammit keçən il oktyabrın sonu və noyabrın əvvəlində Cənubi Koreyanın Kyoncu şəhərində baş tutub.

İran nüvə müqaviləsindən çıxarsa...

Yaxın Şərqdə vəziyyət gərgin olaraq qalır. Bütün dünyanın təsirləndiyi Amerika Birləşmiş Ştatları (ABŞ)-İsrail-İran müharibəsinin yeni fazasının başlayacağı ilə bağlı xəbərlər yayılır. Bildirlir ki, müharibənin ehtimal edilən mərhələsi daha dəhşətli və genişmiqyaslı olacaq. Bunu nümayiş olunan müharibə hazırlıqları da təsdiqləyir.

Uzanan regional münaqişə fonunda diqqət çəkən ən mühüm məqamlardan biri isə nüvə xəbərdarlıqları ilə bağlıdır. Transmilli mediada yayılan məlumatlara görə, ABŞ-İsrail cütlüyü bu dəfə İranın nüvə arsenalını tam şəkildə məhv etmək məqsədi ilə taktiki nüvə silahından istifadə edə bilər. Ciddi narahatlıq doğuran bu xəbərlərə Tehrandan da cavab kifayət qədər sərt olub. Belə ki, İran rəsmilərinin ardarda verdikləri açıqlamalardan aydın olur ki, bu ölkə də yeni nüvə doktrinasına keçidi istisna etmir.

Tehranın yeni nüvə planı masada

İranın nüvə proqramı beynəlxalq ictimayyət üçün yeni mövzu deyil. Hazırda İran ciddi sanksiyalar altındadır ki, bunun da əsas səbəblərindən biri bu ölkənin uranı dinc məqsədlər üçün zəruri olan həddən daha artıq dərəcədə zənginləşdirməsidir. Beynəlxalq birlik o qənaətdədir ki, İran ayrı-ayrı mərkəzlərdə uranı ən azından 60-70 faizədək zənginləşdirməyə nail olub ki, bu da ona yaxın perspektivdə nüvə silahı yaratmağa imkan verəcək.

Son müharibədə ABŞ Prezidenti Donald Trampın əsas tələbi odur ki, İranın nüvə silahı yaratmasına imkan verilməməlidir və verilməyəcək. Ayrı-ayrı vasitəçilərin iştirakı ilə aparılan danışıqlarda da bu tələb gündəliyin mərkəzində dayanıb. Öz növbəsində danışıqlara cəlb olunan İran rəsmiləri, o cümlədən də Prezident Məsud Pezeşkian Tehranın nüvə silahı yaratmaq kimi bir niyyətinin olmadığını bildiribər.

Son günlərdə bu xüsusda İran rəsmilərinin verdikləri açıqlamalardan isə planlarda müəyyən dəyişikliklər edildiyi diqqətdən kənarda qalmır. Artıq İranda real güc sayılan SEPAH rəhbərləri bildirirlər ki, indiyədək zənginləşdirilmiş uranın ölkədən çıxarılması müzakirə mövzusu deyil. Həmin zənginləşdirilmiş uran İranın toxunulmaz mülkiyyətidir və ölkədə saxlanılacaq.



İranın yeni nüvə proqramının digər əsas müddəası isə ölkənin "Nüvə silahlarının yayılmaması haqqında" müqavilədən (NPT) çıxma ehtimalının gündəmə gətirilməsi ilə bağlıdır. Verilən məlumata görə, İran parlamentində ölkənin "Nüvə silahlarının yayılmaması haqqında" müqavilədən çıxmasını nəzərdə tutan qanun layihəsi hazırlanıb. Bu barədə İran parlamenti sədrinin müavini Əli Nikzad bildirib.

Onun sözlərinə görə, hazırda təşəbbüs, o cümlədən onun beynəlxalq nəticələri baxımından araşdırılır. Parlament sədrinin müavini qeyd edib ki, sənəd "fövqəladə əhəmiyyətli" statusu ilə plenar iclasa çıxarılacaq və deputatlar həmin gün ona baxmalı olacaqlar.

Nikzad xatırladıb ki, İran ötən ilin sentyabrında Beynəlxalq Atom Enerjisi Agentliyi (BAEA) ilə əməkdaşlığı dayandırıb. O, təşkilatın baş direktoru Rafael Qrossini vicdansız insan adlandırıb. "O, elə insanlardandır ki, gəlir, yoxlama aparır, bizi tərifləyir, sonra gedir və bizim əleyhimizə mənfi hesabat hazırlayır", - deyə Nikzad vurğulayıb.

Parlament sədrinin müavini ötən il qəbul edilmiş qərarın İranın xeyrinə olduğunu deyib: "Məgər BAEA-nın baş direktorunun və ya orada çalışanların nüvə enerjisi sahəsində bizə yardım göstərəcəklərinə zərrə qədər ümidimiz varmı? Əlbəttə ki, yox".

"İran hələ də "Nüvə Silahlarının Yayılmaması haqqında" müqavilənin iştirakçısıdır, lakin ölkədə müqavilədən çıxmaq məsələsi ciddi şəkildə müzakirə olunur". Bunu isə İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Baqayi deyib.

XİN rəsmisi bildirib ki, İran 1970-ci ildən NPT-nin iştirakçısıdır və müqavilə çərçivəsində üzərinə düşən öhdəliklərə əməl etdiyini düşünür. Onun sözlərinə görə, buna baxmayaraq, ölkə hərbi hücumlara, alimlərin öldürülməsinə və nüvə obyektlərinə zərbələrə məruz qalıb.

İran XİN-in sözçüsü qeyd edib ki, müqavilənin iştirakçısı olan dövlət onun üstünlüklərindən yararlanmaq və öz hüquqlarını həyata keçirmək imkanına malik olmalıdır. O, ölkələrin daim təzyiq, təhdid və hərbi hücumlarla üzləşməsinin qəbuledilməz olduğunu bildirib. Baqayi əlavə edib ki, İran Xarici İşlər Nazirliyi ölkənin səlahiyyətli qurumlarının qəbul etdiyi qərarlara uyğun hərəkət edəcək.

Oxşar məzmunlu bəyanatları digər İran rəsmiləri də səsləndiriblər. Ümumi qənaət ondan ibarətdir ki, İranın NPT-dan çıxma ehtimalı və yeni doktrinaya keçid edəcəyi ehtimalı böyükdür.

Turist axını 43 faiz artıb

Sammit çərçivəsində diqqət çəkən ikitərəfli görüşlərdən biri də Rusiya Prezidenti Vladimir Putinin Çin Xalq Respublikasının sədri Si Cinpin ilə görüşü olub. Qilinyuan Villasındakı Qilin Şanzhuang Dövlət Qonaq Evində keçirilən görüş Putin və Si Cinpin arasında bu il baş tutan beşinci görüş olub.

İki dövlət başçısı arasındakı görüş təxminən iki saat davam edib. Danışıqların əvvəlində Rusiya Prezidenti Moskva və Pekinin daha ədalətli çoxqütblü dünya nizamı yaratmaq üçün konstruktiv yanaşmaya riayət etdiyini bildirib. İki ölkənin ortaq məqsədi Asiya-Sakit Okean regionunda rifahı təmin etməkdir. Si Cinpiin öz növbəsində Rusiya və Çinin davamlılığı qətiyyətlə qorumalı, cəsarətlə irəliləməli və çoxqütblü dünyanın formalaşmasını və beynəlxalq münasibətlərin demokratikləşməsini təşviq etməli olduqlarını vurğulayıb.

Görüşdə vurğulanıb ki, Rusiya və Çinin tətbiq etdiyi qarşılıqlı vizasız rejim sayəsində ölkələr arasında turist axını 43 faiz artıb. Prezident Putin qeyd edib ki, nəqliyyat əlaqəsi inkişaf edir və humanitar sahələrdə əməkdaşlıq güclənib: "Şübhəsiz ki, buna Sizin təşəbbüsünüzlə tətbiq edilən vizasız rejim kömək edir. Turist axını dərhal 43 faiz artıb".



Beynəlxalq öhdəliklərin məsuliyyətlə yerinə yetirilməsi üçün birgə səylər...

Çin sədri Si Cinpin bildirib ki, Rusiya ilə Çin arasında münasibətlər stabil olaraq qalır və istənilən beynəlxalq şoka tab gətirə bilər. "Bizim möhkəm rəhbərliyimiz altında Çin-Rusiya münasibətləri istənilən bəlaya qarşı fırtınada dağ kimi dözümlüdür".

Si Cinpinin sözlərinə görə, Moskva və Pekin arasında əməkdaşlıq beynəlxalq qeyri-sabitlik şəraitində sabitliyi və proqnozlaşdırılmasın gücləndirir. O, iki ölkə arasında qarşılıqlı əlaqəni böyük güclər arasında bərabərlik, qarşılıqlı hörmət və qarşılıqlı faydaya əsaslanan yeni tipli münasibətlərin nümunəsi adlandırıb. Çin Xalq Respublikasının Sədri, həmçinin ikitərəfli əlaqələrin potensialını ardıcıl olaraq açmağa və praktiki əməkdaşlığı genişləndirməyə çağırıb. O, əlaqələrin inkişafı və beynəlxalq öhdəliklərin məsuliyyətlə yerinə yetirilməsi üçün birgə səylərin vacibliyini vurğulayıb.

Üçtərəfli görüşün müzakirə mövzuları bəlli olub...

Qeyd edək ki, bu gün keçirilməsi planlaşdırılan üçtərəfli ABŞ-Rusiya-Çin görüşündən gözləntilər böyükdür. Rusiya Prezidenti APEC-in Biznes Sammitində çıxışı zamanı deyib ki, üçtərəfli görüşdən böyük potensial faydalar gözləyir. Putin qeyd edib ki, onlar "eyni masada" fikir mübadiləsi apara və siyasət, iqtisadiyyat və təhlükəsizlik sahəsində dövlətlərarası fikir ayrılıqlarını kompromislər axtarmaqla və maraqları balanslaşdırmaqla həll edə bilərlər. "Buna görə də, Rusiya, Çin və ABŞ liderləri arasında APEC sammiti çərçivəsində planlaşdırılan qarşıdan gələn üçtərəfli görüşdən böyük potensial faydalar gözləyirəm", - deyə Putin bildirib.

Bəlli olduğu kimi, Şençjendə planlaşdırılan üçtərəfli görüş ideyası bu ilin yayından müzaikrə edilir. Noyabrın əvvəlində Moskva, Vaşinqton və Pekin onun təşkili ilə bağlı müzakirələri intensivləşdirdilər və görüşün tarixi açıqlandı. "South China Morning Post" qəzetinin məlumatına görə, Moskva, Vaşinqton və Pekin danışıqların gündəliyini və protokolunu əlaqələndirmək üçün bir neçə həftə sərf ediblər. Nəşrin yazdığına görə, əsas mövzulardan biri nüvə silahlarının idarə edilməsi sistemlərində süni intellektin istifadəsi ola bilər. Noyabrın 16-da ABŞ Prezidenti Donald Tramp Ukraynadakı vəziyyəti Şençjendə Putin və Si Cinpinlə müzakirə etmək niyyətində olduğunu açıqlamışdı. "Ən sevdiyim mövzu - Ukrayna haqqında danışacağıq", - deyə o bildirmişdi.

P.İSMAYILOV

Regionu hansı təhlükələr gözləyir?

Bəs qonşu ölkənin beynəlxalq nüvə müqaviləsindən çıxması region üçün hansı fəsadlara səbəb ola bilər? Qeyd edək ki, müqavilədən çıxmaq istəyən ölkələr üç aylıq bildiriş prosedurundan keçməlidirlər. Müqavilənin 10-cu maddəsinə əsasən, İran sazişdən dərhal çıxa bilməz. Tehran qərarın səbəblərini göstərməklə digər üzv dövlətlərə və BMT Təhlükəsizlik Şurasına ən azı üç ay əvvəl rəsmi bildiriş göndərməlidir.

İranın "Nüvə Silahlarının Yayılmaması haqqında" müqavilədən çıxması regionda və qlobal miqyasda ağır diplomatik, iqtisadi və hərbi nəticələrə yol aça bilər. Bu halda BAEA-nın ölkədəki nüvə obyektlərini yoxlamaq üçün hüquqi əsası qalmayacaq və Tehran öz fəaliyyətində tam sərbəstlik qazanacaq. Bu isə ilk növbədə region ölkələri üçün təhlükəlidir. Son müharibə də təsdiqlədi ki, İranın ayrı-ayrı qonşu dövlətlərlə münasibətləri arzuedilən səviyyədə deyil. Bu ölkə həmçinin proksi qüvvələri vasitəsi ilə rəqiblərinə təsir göstərməyə çalışır və bu, sahədə açıq-aşkar müşahidə olunur. O cümlədən İran Zəngəzur (TRIPP marşrutu) ilə bağlı aydın olmayan mövqe sərgiləyir. Nüvə silahına sahiblənmə isə regional güc balansını pozar və İranın əzəli rəqiblərinə qarşı təzyiq imkanlarını daha da artıra bilər.

İran rəsmilərindən gələn açıqlamalar da ciddi narahatlıq doğurur. "İran əleyhinə nüvə silahından istifadə etməyə dair rəsmi mövqe olduğu halda onun mənfi nəticələri regionla məhdudlaşmayacaq". Bu fikri İran xarici işlər nazirinin hüquq və beynəlxalq məsələlər üzrə müavini Kazım Qəribabadi bu günlərdə Tehranda təşkil olunan tədbirdə deyib.

"İndiyə qədər ölkələrin, o cümlədən ABŞ rəsmilərinin İran əleyhinə taktiki nüvə silahından istifadə edilməsi ehtimalı haqda heç bir rəsmi açıqlama olmayıb. Bu bəzi KİV-də yayımlanan məlumatlardır. Əgər "Nüvə silahlarının yayılmaması haqqında" müqaviləyə üzv və nüvə silahı olan ABŞ kimi ölkənin rəsmisi İranın bəzi obyektləri və infrastrukturlarına qarşı taktiki nüvə silahından istifadə etmək niyyətində olduğunu açıqlayarsa, məsələ hüquqi aspektdən daha geniş hal alacaq. Belə bir hədə nüvə hüququnun və müvafiq müqavilənin tam şəkildə məhv olması mənasında olacaq", - deyə o qeyd edib.

Nazir müavini deyib ki, İran əleyhinə taktiki nüvə silahından istifadə olunduğu halda, İran qolu bağlı qalmayacaq, tamaşaçı olmayacaq və beynəlxalq səhnədə hüquqi etirazlarla kifayətlənməyəcək. Bu halda beynəlxalq hüquqi rejimlər təkcə İran üçün deyil, bu çərçivələrdə olan bir çox ölkə üçün sona çatmış olacaq.

Qeyd edək ki, son günlər amerikalı jurnalist Taker Karlson bildirib ki, ABŞ potensial hədəf kimi İranın mərkəzi hissəsində yerləşən Koləng dağına nüvə zərbəsi endirə bilər. Tehranın həmin ərazidə uranın zənginləşdirilməsi proqramını bərpa etdiyi iddia olunur.

Mübariz FEYİZLİ

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:


“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressİnformMMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN



Müasir dünyanın çağırışları fonunda...

Dəyişən dünyada dəyərlərimizi necə qorumalı?



Dünyanın müxtəlif coğrafiyalarında dini, milli və mədəni fərqliliklər bəzən qarşıdurma və ayrıseçkilik üçün zəminə çevrildiyi halda, elə cəmiyyətlər də var ki, bu fərqlilikləri zənginlik, qarşılıqlı hörmət və birgəyaşayış mədəniyyətinin əsasına çevirir. Belə cəmiyyətlərdə insanları birləşdirən başlıca amil onların hansı dinə etiqad etməsi, hansı millətə mənsub olması deyil, ümumi dəyərlərə, qarşılıqlı hörmətə və sülh şəraitində yaşamaq prinsipinə bağlılığıdır. Çünki tolerantlıq sadəcə fərqli düşüncələrə dözümlü yanaşmaq deyil, həm də insanın kimliyinə, inancına, milli mənsubiyyətinə hörmətlə yanaşmaq mədəniyyətidir.

Müasir dünyada qloballaşma, informasiya texnologiyalarının sürətli inkişafı və geosiyasi dəyişikliklər xalqlar və mədəniyyətlər arasında əlaqələri daha da genişləndirir. Bununla yanaşı, dini və milli zəmində ayrıseçkilik, radikalizm, stereotiplər və dözümsüzlük kimi hallar da cəmiyyətlər qarşısında yeni çağırışlar yaradır. Belə bir şəraitdə milli-mənəvi dəyərlərin qorunması, dini və etnik müxtəlifliyin cəmiyyətin inkişafına xidmət edən üstünlüyə çevrilməsi xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan tarixən müxtəlif xalqların, dinlərin və mədəniyyətlərin qarşılıqlı anlaşma şəraitində yaşadığı məkan kimi tanınıb. Ölkəmizdə formalaşmış tolerantlıq mühiti əsrlər boyu qorunub saxlanılan birgəyaşayış ənənələrinin, mənəvi dəyərlərin və qarşılıqlı ehtiramın nəticəsidir. Müxtəlif dini konfessiyaların və etnik qrupların nümayəndələrinin vahid cəmiyyət daxilində sülh və qarşılıqlı hörmət şəraitində yaşaması Azərbaycanın multikultural dəyərlərə sadiqliyinin göstəricisidir.

Dini və milli tolerantlığın qorunması yalnız dövlət siyasətinin deyil, həm də hər bir vətəndaşın mənəvi məsuliyyətinin tərkib hissəsidir. Unutmaq olmaz ki, milli kimliyi qorumaq başqalarının kimliyinə hörmət etməyə mane olmamalıdır. Əksinə, öz tarixinə, dilinə, dininə və mədəniyyətinə hörmət edən insan digər xalqların da eyni dəyərlərinə ehtiram göstərməyin vacibliyini daha yaxşı dərk edir. Məhz bu qarşılıqlı münasibət cəmiyyətdə etimad mühitini möhkəmləndirir, millətlərarası münasibətlərin inkişafına və ictimai həmrəyliyin güclənməsinə zəmin yaradır.

Bu kontekstdə Ağstafa şəhərində keçirilən “Dəyişən dünyada dəyərlər, inanc və kimlik” mövzusunda regional konfrans da dini və milli dəyərlərin qorunması, müxtəlifliyə hörmət və cəmiyyətdə qarşılıqlı anlaşmanın gücləndirilməsi baxımından əhəmiyyətli müzakirə platforması kimi diqqət çəkir. Regional konfrans Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə baş tutub. Tədbirdə Dövlət Komitəsinin və Ağstafa Rayon İcra Hakimiyyətinin rəhbərliyi, həmçinin ictimaiyyət nümayəndələri, ilahiyyatçılar, din xadimləri və dini icma sədrləri iştirak ediblər.

Azərbaycanın seçdiyi istiqamət: Müasirlik və dini dəyərlər bir arada





Konfransda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov bildirib ki, bu gün dünyada, xüsusən də bölgədə baş verən hadisələr Azərbaycanın doğru istiqamətdə hərəkət etdiyinə bir daha tam əminlik yaradır. O, Azərbaycanın inancının, kimliyinin və dəyərlərinin dövlət bayrağının rənglərində ehtiva olunduğunu vurğulayıb:

“Bizim nə keçmişimizlə, nə də gələcəyimizlə bağlı tərəddüdümüz var. Biz türk dünyasının böyük bir parçasıyıq, türklüyümüzlə fəxr edirik. Müasirliyimiz bizim gələcəyə aparan yolumuzu xarakterizə edən əsas elementlərdən biridir və inanc sistemlərimizi yaşatmaqla müasirlik yolunda hərəkət etməyi özümüzə istiqamət seçmişik. Yaxın coğrafiyaya baxdıqda, bir çox ölkələrdə dini etiqadın təmin edilməsi üçün şəraitin olmadığını görürük. Niyə? Çünki bir sıra dövlətlər ciddi böhran içərisindədirlər”.

R.Məmmədov hazırda inkişaf və sabitliyi Azərbaycanın əsas dəyərlərindən biri kimi qiymətləndirib: “Sabitlik bizim üçün ən böyük dəyərlərdən biridir. Evimizdə rahatlıq, ailəmizlə birgə keçirdiyimiz vaxt bizim üçün böyük dəyərlər sisteminin tərkib hissəsidir. Bu da bizim üzərimizə müəyyən məsuliyyət qoyur.

Azərbaycan Respublikası Media və Yayım Şurası

Məqalə “Azərbaycan Respublikası Media və Yayım Şurası”nın maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır

Sabitlik ən böyük dəyərlərimizdəndir...

Məsuliyyətimiz bayrağımızın rənglərində əks olunan dəyərlərə böyük hörmətlə yanaşıb, onu qoruyaraq növbəti nəsillərə ötürməkdən ibarətdir. Bunun üçün din xadimlərinin də üzərinə böyük bir məsuliyyət düşür”.

Yeganə BAYRAMOVA

Şaxta, qar və güclü külək sınağı...

Bakının sərt qışa hazırlığı necə gedir?

Bakı qışı ilə heç vaxt asan dil tapmayıb. Paytaxt sakinləri üçün qış dedikdə yalnız soyuq hava, yağış və qar deyil, həm də küləyin şiddətlənməsi, küçələrdə yaranan gölməçələr, buz bağlayan yollar, nəqliyyatda gecikmələr və mənzillərdə istilik problemi ehtimalı yada düşür. Bir neçə saat davam edən güclü qar belə paytaxtın gündəlik həyatını dəyişə, avtomobillərin hərəkətini çətinləşdirə, piyadalar üçün təhlükəli vəziyyət yarada bilər.

Qar yağanda yollar bağlanacaq, şaxta düşəndə istilik və qaz təchizatında problem yaranacaqmı? Qış yaxınlaşdıqca bu suallar yenidən aktuallaşır. Aidiyyəti qurumlar hazırlıq işlərinə başladıqlarını, texnika və duz ehtiyatlarının yaradıldığını bildirirlər. Bəs bütün bunlar paytaxtı sərt qışın sınağından çıxarmağa kifayət edəcəkmi?

Bu il qışla bağlı narahatlıqlar bir qədər də artıb. 2026-2027-ci illərin qışının sərt keçə biləcəyi barədə beynəlxalq atmosfer proseslərinə əsaslanan müxtəlif müzakirələr aparılır. Xüsusilə, qütb burulğanında baş verən dəyişikliklər, El Nino hadisəsi və soyuq hava kütlələrinin hərəkəti diqqət mərkəzindədir. Bəzi xəbərlərdə son onilliklərin ən sərt qışlarından birinin yaşana biləcəyi iddia olunur.

Lakin burada bir məqamı nəzərə almaq lazımdır: indiki mərhələdə Azərbaycanın, xüsusilə, Bakının 2026-2027-ci illərdə rekord dərəcədə sərt qış keçirəcəyini təsdiqləyən rəsmi meteoroloji proqnoz yoxdur. Bununla belə, ayrı-ayrı günlərdə kəskin temperatur enməsi, şaxta və qar ehtimalı istisna edilmir.

Xüsusi texnika və duz ehtiyatı hazırlanır

Paytaxtın qışa hazırlığı ilə bağlı Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) artıq bir sıra tədbirlərin həyata keçirildiyini açıqlayıb. Qurumun noyabrın 17-də yaydığı məlumata əsasən, şəhərin bütün rayonlarında təsdiq edilmiş tədbirlər planlarına uyğun olaraq qarlı havalara hazırlıq işləri davam etdirilir. İlk növbədə kommunal xidmətlərin xüsusi təyinatlı texnikaları hazır vəziyyətə gətirilib, bir sıra yaşayış və qeyri-yaşayış binalarında təmir işləri aparılıb.

BŞİH tərəfindən hər bir rayona qışa hazırlıq tədbirlərinə nəzarət edəcək məsul şəxslər də təyin olunub. Onlar yerli icra hakimiyyətlərinin nümayəndələri ilə birlikdə görülən işlərin vəziyyətini yoxlayıblar. Rayonlarda keçirilən müşavirələrdə isə bir sıra konkret tapşırıqlar müəyyənləşdirilib. Bunlara kifayət qədər texniki duz ehtiyatının yaradılması, qar təmizləmək üçün lazımi inventarın toplanması, xüsusi texnikaların saz vəziyyətdə saxlanılması və küçə-məhəllələrin təmizlənməsinə cavabdeh şəxslərin müəyyən edilməsi daxildir.

Bundan başqa, qarlı günlərdə kommunal qurumlarla yanaşı, bələdiyyələrin, özəl müəssisələrin, idarə və təşkilatların da öz ərazilərinin təmizlənməsində iştirak etməsi nəzərdə tutulur.

1,5 milyon manatlıq texniki duz hazırlığı

Qışa hazırlıqla bağlı diqqətçəkən məsələlərdən biri də yolların buzlaşmasına qarşı istifadə ediləcək texniki duz ehtiyatıdır. Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin Sanitariya və Texniki Təmizlik İdarəsi mövsümə hazırlıq çərçivəsində emal edilməmiş texniki duzun satın alınması üçün 1 milyon 545 min manatlıq satınalma prosesi həyata keçirib. Bu vəsait qış aylarında yolların və digər ərazilərin buzlaşmasının qarşısının alınması üçün material ehtiyatının yaradılmasına yönəlib.



12 kilometrdən çox istilik xətti yenilənib

Qış mövsümünün ən həssas məsələlərindən biri də yaşayış binalarının istiliklə təminatıdır. Xüsusilə, mərkəzləşdirilmiş istilik sistemindən istifadə edən minlərlə ailə üçün qışın rahat keçməsi bu sahədə görülən işlərdən birbaşa asılıdır.

“Azəristiliktəchizat” ASC-nin sədri İlham Mirzəliyev, 2026-2027-ci illərin payız-qış mövsümünə hazırlıq işlərinin yekun mərhələdə olduğunu bildirib. Onun sözlərinə görə, oktyabrın 27-nə hazırlıq səviyyəsi 95 faiz qiymətləndirilib, qalan işlərin isə noyabrın ilk həftələrindən sonra tamamlanması nəzərdə tutulub.

Qurumun yaydığı məlumata əsasən, istilik mövsümü noyabrın 15-dən Bakı şəhərində və bir sıra digər ərazilərdə başlayıb. Qeyd olunub ki, 2026-2027-ci illərin istilik mövsümündə 549 qazanxana, 87 istilik məntəqəsi və iki yüksəldici nasos stansiyası vasitəsilə 3 838 yaşayış binasının, təxminən 178 min mənzilin, eləcə də məktəb, uşaq bağçası və səhiyyə obyektlərinin istiliklə təmin edilməsi nəzərdə tutulur.

Bu rəqəmlər kifayət qədər böyük hazırlıq işlərinin aparıldığını göstərir. Bununla belə, sakinlər üçün əsas göstərici istilik xətlərinin neçə metr yenilənməsi deyil, mənzillərdə temperaturun normal səviyyədə saxlanılmasıdır.

Qışa hazırlıq təkcə dövlət qurumlarının işi deyil

Qışın sərt keçməsi ehtimalı hər bir sakinin də əvvəlcədən tədbir görməsini zəruri edir. Xüsusilə, yaşlılar, uşaqlar və sağlamlıq baxımından həssas insanlar soyuq hava şəraitində daha diqqətli olmalıdırlar. Binaların dam örtüklərinin, su və kanalizasiya xətlərinin, giriş qapılarının və pəncərələrin vəziyyəti yoxlanılmalıdır. Fərdi istilik sistemlərindən istifadə edənlər avadanlıqların texniki baxışını gecikdirməməlidirlər.

Avtomobil sahibləri isə qış mövsümünə uyğun şinlərdən istifadə etməli, akkumulyatorun, əyləc sisteminin və digər vacib hissələrin vəziyyətini yoxlamalıdırlar.

Bununla yanaşı, güclü qar və buzlaşma zamanı zərurət olmadıqca şəxsi avtomobillə hərəkətin məhdudlaşdırılması da şəhər yollarında sıxlığın və qəza riskinin azalmasına kömək edə bilər.

Bakı qışın sınağından çıxa biləcəkmi?

Bakı Şəhər İcra Hakimiyyətinin kommunal xidmətləri səfərbər etməsi, texniki duz ehtiyatının yaradılması, “Azəristiliktəchizat”ın istilik infrastrukturunda apardığı yenilənmə işləri müsbət addımlardır. İndi əsas məsələ bu hazırlığın real hava şəraitində nə dərəcədə səmərəli nəticə verəcəyidir. Məlumdur ki, qışa hazırlıq yalnız texnikanın qarajda, duzun anbarda, qazanxananın isə işlək vəziyyətdə olması demək deyil. Əsl hazırlıq qarın yağdığı ilk saatlarda yolların təmizlənməsi, buzlaşmanın vaxtında qarşısının alınması, mənzillərə istiliyin fasiləsiz verilməsi və yaranan problemlərin operativ həllidir.

Bu qış Bakı üçün həm kommunal xidmətlərin, həm nəqliyyat sisteminin, həm də şəhər sakinlərinin hazırlığının ciddi sınağına çevrilə bilər. Paytaxtın qışdan üzüağ çıxması isə indidən görülən tədbirlərin praktikada nə dərəcədə işləyəcəyindən asılı olacaq.

Yeganə BAYRAMOVA

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4308
Sifariş: 1527
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova